# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 17 (3341) Çərşənbə axşamı / 16-17 fevral 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## "Günə 50-70 xəstə qəbul etmişik..."



Cəfər Nəsirli,
Azərbaycan Tibb Universitetinin Travmatologiya və Ortopediya kafedrasının müdiri, travmatoloq- ortoped

*Qarabağın işğalından uzun zaman keçsə də, qəlbimizdəki yaranın nə qanı dayandı, nə də o yara qaysaq bağladı. 27 sentyabr günü isə düşmən xislətinə uyğun yenə, dinc əhalini hədəfə aldı. Bu dəfə daha son idi. "Qarabağ Azərbaycandır!" dedik, Ali Baş Komandanın "İrəli!" əmrinə hamılıqla qoşulduq. Düşmənlə üz-üzə səngərdə şanlı Azərbaycan Ordusu, arxa cəbhədə isə xalq dayandı. 44 gün davam edən Vətən müharibəsinin əvəzsiz qəhrəmanlarından biri də məhz həkimlərimiz idi.*

*Bu pay mənim üçün o qədər dəyərli idi ki, bəlkə əvəzində kilolarla qızıl gətirsəydilər, o qədər qiymətli olmazdı*

Səh. 6

# İri dövlət şirkətlərinin idarəçiliyində yeni dövr

***Məlum olduğu kimi, bu yaxınlarda Azərbaycan İnvestisiya Holdinqinin (AİH) idarəetməsinə daha dörd dövlət müəssisəsi verilib. Belə ki, dövlət başçısının imzaladığı sərəncamla "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti və Bakı Nəqliyyat Agentliyinin tabeliyindəki "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilib. Ümumilikdə, AİH-nin tərkibinə 21 dövlət müəssisəsi daxildir. Bunlar Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Bakı Metropoliteni" QSC, "AzerGold" QSC, "Azərenerji" ASC, "Azərsu" ASC, "Azərişıq" ASC, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC, "Azərkosmos" ASC, "Azərbaycan Beynəlxalq Bankı" ASC, "Azər-Türk Bank" ASC, "Azəristiliktəchizat" ASC, "Təmiz Şəhər" ASC, eləcə də Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyindəki qurumlar - "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Aztelekom" MMC, "Azerbaijan International Telecom" (AzInTelecom)" MMC, "Azərpoçt" MMC, "Bakı Telefon Rabitəsi" MMC, Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkətidir.***






*Hazırda ölkədə məşğulluğun 25 faizi dövlət müəssisələrinin payına düşür*

### Dövlətə dağ boyda yük olan müəssisələr

**Çoxlarına bəllidir ki, Azərbaycanda dövlət mülkiyyətində olan irili-xırdalı xeyli müəssisə var. Onların bəziləri mənfəətlə işləsə də, bəziləri, xüsusən də iri müəssisələrin əksəriyyəti zərərlə işləyir. Buna görə də dövlət məcbur qalaraq hər il büdcədən həmin müəssisələrə subsidiya verir.**

Təbii ki, zərərlə işləyən dövlət müəssisələri dövlət büdcəsinin səmərəliliyini yalnız aldığı subsidiyalarla aşağı salmır. Həm də xaricdən cəlb edilən borcların müəyyən hissəsi həmin müəssisələrin investisiya layihələrini maliyyələşdirmək üçün istifadə olunur. Xaricdən cəlb edilən həmin vəsaitlərin bir hissəsi dövlət büdcəsinin hesabına qaytarılır. Məsələn, Hesablama Palatasının rəylərində bildirilir ki, 2019-cu ildə dövlət büdcəsinin ayrı-ayrı istiqamətlərindən 30 iri dövlət müəssisəsinə ümumilikdə 3,955 milyard manat məbləğində vəsait ayrılıb. Bu məbləğin 3,054 milyard manatı və ya 77,2 faizi dövlət əsaslı vəsait qoyuluşu, 545,4 milyon manatı və ya 13,7 faizi əvvəlcədən bölgüsü müəyyənləşdirilən xərclər, 251,2 milyon manatı və ya 6,3 faizi birdəfəlik təyinatlı və tədbirlər üzrə xərclər, 100,9 mln. manatı və ya ya 2,6 faizi Ehtiyat Fondları, 3,7 milyon manatı və ya 0,2 faizi büdcədənkənar xərclər üzrə olub.

Gəlin bir də bu müəssisələrin dövlət büdcəsinə etdiyi ödənişlərə diqqət yetirək.

Məsələn, 2019-cu ildə büdcəyə "Azərbaycan Dəmir Yolları" QSC 10,8 milyon manat ödədiyi halda, büdcədən 652 milyon manat, "Azərsu" Səhmdar Cəmiyyəti 24,6 milyon manat qarşılığında 483,7 milyon manat, Dövlət Neft Şirkəti "Azəriqaz" Səhmdar Cəmiyyəti 34,2 milyon manat ödədiyi halda 462,3 milyon manat, "Azərenerji" Səhmdar Cəmiyyəti 90,8 milyon manata qarşılıq 403 milyon manat, "Xəzər Dəniz Gəmiçiliyi" QSC 24,5 milyon manat ödədiyi halda, 44 milyon manat, "Azərbaycan Hava Yolları" QSC 35,9 milyon manat ödədiyi halda, 10 milyon manat subsidiya alıb. Adıçəkilən böyük şirkətlərin büdcədən aldğı subsidiya 2 milyard manatdan çoxdur. Dövlət şirkətləri büdcədən 4 milyard manat subsidiya aldığı halda, büdcəyə cəmi 1,847 milyard manat ödəniş ediblər. Bu ödənişin də 1,411 milyard manatını SOCAR verib. Digər şirkətlərin payına 436 milyon manat düşüb. Dövlət Vergi Xidməti xətti ilə dövlət büdcəsinə təmin edilən gəlirlərin tərkibində dövlət mülkiyyətində olan müəssisələrin payı 24,1 faiz təşkil edib.

Digər bir məqam, dövlət müəssisələrinin fəaliyyəti nəticəsində yaranan xarici borcla bağlıdır və bu müəssisələrin xarici borcu da çoxdur. 2020-ci ilin əvvəlində dövlətin xarici borcu 9,091 milyard dollar olub. Bunun 390 milyon dolları "Meliorasiya və su təsərrüfatı" ASC-yə, 970,3 milyon dolları "Azərsu"ya, 885,8 milyon dolları "Azərbaycan Dəmir Yolları" ASC-yə verilib. Bağlanan müqavilələrə əsasən "Meliorasiya və su təsərrüfatı" ASC-yə görə 627,1 milyon dollar, "Azərsu"ya görə 1,269 milyard dollar, "Azərbaycan Dəmir Yolları" ASC-yə görə 1,368 milyard dollar əlavə borc alınacaq.

### Hesabatlılıq, şəffaf idarəetmə, səmərəliliyin artırılması

**Təbii ki, bu faktlar dövlət şirkətlərinin dövlət büdcəsi üçün çox ağır yük olduğunu bir daha təsdiqləyir. Şirkətlərin idarə edilməsi nəticəsində yaranan ağır maliyyə təminatı isə məhz idarəetmənin düzgün təşkil edilməməsindən qaynaqlanır.**

Buna görə də dövlət başçısının 7 avqust 2020 tarixli fərmanı ilə Azərbaycan İnvestisiya Holdinqi yaradılıb. Holdinqin nizamnamə kapitalı 10 mln manat təşkil edir.

İlk 3 il büdcədən, sonrakı illər əsasən idarəetməsinə verilmiş dövlət müəssisələrinin illik xalis mənfəətinin 20 faizi hesabına maliyyələşəcək. Azərbaycan İnvestisiya Holdinqinin Nizamnaməsinə görə, holdinqin idarəetmə orqanları Müşahidə Şurası və İdarə Heyətidir.

Səh. 5

MÜSAHİB



Fikrət Sadıqov,
politoloq

■ 1 il əvvəl Münhendə başladığımız diplomatik uğur, bu gün Qarabağda tam zəfərlə nəticələnməlidir.

■ Torpaqlarımızı azad etmişiksə, ərazi bütövlüyümüzü bərpa etmişiksə, digər məsələləri də həll edəcəyik.

■ Münhendə Azərbaycan Prezidentinə məğlub olan Ermənistanın baş naziri son zərbəsini "Dəmir Yumruq"dan aldı.

Səh. 3

GÜNÜN FOTOSU...



**Zəngilanda tarixi çinar meşəliyi bərpa edilir...**

GÜNÜN SİTATI

*"COVID-19 başlayanda beynəlxalq böhrana beynəlxalq yanaşma görmədik. Təəssüf ki, BMT çərçivəsində, yaxud onların çətiri altında irimiqyaslı tədbirlərin təşkil olunmasını görmədik"*



Hikmət Hacıyev,
Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri

KARİKATURA



**Pandemiya dövründə aviaəlaqələr bərpa olunur...**

## Heç nədən qorxmaq lazım deyil

Misir Mərdanov,
keçmiş təhsil naziri

Doğrudur, bəzi hallarda koronavirus əleyhinə peyvənd olunmaqdan ehtiyat edirlər, amma qorxulu heç nə yoxdur.

Səh. 4

STATİSTİKA



**■ Pandemiya dövründə nikaha girən şəxslərin sayı bəlli olub.**

"ASAN xidmət"in yaydığı məlumatda bildilir ki, pandemiya dövründə 17 min 887 nikah qeydə alınıb. Bununla da ötən ilin mart ayından bu günə kimi 35 min 774 nəfərin nikaha girdiyi bəlli olub.

Qeyd edək ki, Azərbaycanda pandemiya keçən ilin fevral ayından başlayıb.



Səh. 8

## "Hər üç rus turistdən ikisi Türkiyəyə gəlmək arzusundadır..."

# PREZİDENTİN İŞ GÜNÜ

**Prezident İlham Əliyev "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanunu təsdiq edib.**



Qanuna əsasən, sosial iş yerlərində şəhidlərin ailə üzvlərinin əməkhaqqının bir hissəsi dövlət tərəfindən ödəniləcək.

Qanuna görə, sosial iş yerlərinin təşkili zamanı şəhid ailəsi üzvlərinə də üstünlük veriləcək.

***

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin əməkdaşlarının təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla aşağıdakı şəxslər təltif edilib:**

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Zəkiyev İlham Əzizağa oğlu

3-cü dərəcəli "Əmək" ordeni ilə

Rəhimov İlqar Elxan oğlu

"Tərəqqi" medalı ilə

Abbasov İlqar Əziz oğlu

Əlizadə Ülkər Ələsgər qızı

Hacıyev Yaşar Fərəc oğlu

Məhərrəmov İlham Nadir oğlu

Muradov Əkbər Ədalət oğlu

Mürsəlov Rauf Dadaş oğlu

Ramazanzadə Mehman Əbil oğlu.

# Bəzi zəngin ölkələr tələb olunduğundan iki dəfə çox vaksin alırlar



**Hikmət Hacıyev,**
Azərbaycan Prezidentinin köməkçisi

**Azərbaycan yalnız ölkə daxilində deyil, eyni zamanda qlobal səviyyədə də koronavirusla mübarizəyə mühüm töhfə verir.**

Bunu Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev "COVİD-19 pandemiyasının və vaksinasiyanın geopolitikası" adlı konfransda deyib. H.Hacıyev vurğulayıb ki, BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılması təşəbbüsü məhz Prezident İlham Əliyev tərəfindən irəli sürüldü və biz çox şadıq ki, bu təşəbbüs dəstəkləndi. PA rəsmisi bildirib ki, Azərbaycan bu gün də özünün qlobal səviyyədə dəstəyini göstərir.

Vaksinasiya haqqında danışan H.Hacıyev vurğulayıb ki, bir sıra ölkələr, o cümlədən Azərbaycan vaksinasiyanı tətbiq etməyə başlayıb: "Azərbaycanda vaksinasiya strategiyası hazırlanıb və ilkin olaraq risk qrupuna daxil olan insanların vaksinasiyası həyata keçirilir. Eyni zamanda, biz dünya təcrübəsini də nəzərə alırıq". H.Hacıyev bildirib ki, bəzi zəngin ölkələr tələb olunduğundan iki dəfə çox vaksin alırlar: "Təəssüflər olsun ki, bu cür addımlar kasıb ölkələrin vaksin almaq imkanlarını məhdudaşdırır. Kasıb ölkələrin də vaksinlərə çıxışını təmin etmək lazımdır. Biz bütün BMT ölkələri arasında əməkdaşlığı gücləndirməklə bu bəlaya qalib gələ bilərik".

"Peyvənd məsələsində bərabər və hamı üçün eyni yanaşma olmalıdır. Peyvəndin hazırlama texnologiyasının paylaşılması ilə bağlı təklif irəli sürülüb". Hikmət Hacıyev deyib. O bildirib ki, bəzi ölkələr bununla bağlı Ümumdünya Səhiyyə Təşkilatına müraciət edib. "Bununla da daha çox vaksin istehsal olunsun və paylanılsın. Biz hazırda Qoşulmama Hərəkatı çərçivəsində belə bir təklif irəli sürmüşük. Bu, 120-yə yaxın ölkənin birgə mövqeyi olacaq.

Xüsusilə aşağı gəlirli ölkələrə vaksin paylanmasına şərait yaradacaq. Biz donor təşkilatları da bu təklifləri nəzərə almağa çağırırıq. Pandemiya ilə mübarizədə ÜST-ün səylərini isə yüksək qiymətləndiririk", - deyə o vurğulayıb.

"COVID-19 gördüyümüz ən pis pandemiyadır". Bunu isə Ümumdünya Səhiyyə Təşkilatının(ÜST) Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib.

O bildirib ki, bütün dünya pandemiyanın təsirinə məruz qalsa da, kasıb ölkələr bundan daha çox əziyyət çəkir: "Sözsüz ki, daha həssas ölkələr və daha həssas əhali qrupları daha çox təsirə məruz qalıb. Yaxşı xəbər odur ki, dünya səviyyəsində yeni yoluxmaların sayı 70 faizə qədər azalmaqdadır. Lakin bəzi ölkələrdə COVID-19-a yoluxma sayı artır. Unutmamalıyıq ki, qaydalara əməl etmək lazımdır, çünki virusun yeni variantları ortaya çıxa bilər".

Onun sözlərinə görə, pandemiya ilə mübarizədə mühüm mərhələyə gəlib çatmışıq: "Vaksinlə bağlı bərabərsizlik artır. Vaksin əldə edən ölkələrin 90 faizi zəngin ölkədir. Hazırda 3.5 milyon doza vaksin 10 ölkəyə paylanılıb. 2.5 milyard əhalisi olan 130 ölkə isə vaksinin heç bir dozasını əldə edə bilmir. Biz birgə işləməli, bərabərsizliyi aradan qaldırmalıyıq".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Gündəm

# "Biz hər şeyə nəzarət edirik"

**Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar. Dövlət başçısı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoyub. Məlumat verilib ki, ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür.**

Bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Dövlətimizin başçısı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu.

### Ağalı kəndi - ilk ağıllı kənd

**Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Üçüncü Ağalı kəndində olublar.**

Zəngilana gedərkən avtomobili özü idarə edən Prezident İlham Əliyev deyib:

- Zəngilan rayonuna gəlmişik. Yolumuz Laçın rayonunadır. Yol boyunca Zəngilan rayonunda da tədbirlər var. Yenə də azad edilmiş torpaqlardayıq. Torpaqların bərpası prosesi artıq başlamışdır.

Bura Zəngilan şəhəridir. Biz burada artıq olmuşuq, yenə də gəlmişik. Zəngilan şəhəri də digər şəhərlər kimi düşmən tərəfindən demək olar tamamilə dağıdılmışdır. Bir neçə ev qalmışdır. Burada onların hərbi hissəsi, polis bölməsi yerləşirdi. Bir də ki, xaricdən gələn ermənilər, burada qanunsuz yaşayan ermənilər. Zəngilanı bax bu günə qoyub mənfur düşmən.



Bütün şəhərlərimizin baş planları hazırlanır. Təqdim olunacaq, müzakirə ediləcək. Ondan sonra bərpa işlərinə start veriləcək. Keçən dəfə Zəngilan şəhərinə gələndə bu bayrağı burada mən ucaltdım. Zəngilan rayonunda birinci "ağıllı kənd" layihəsi icra ediləcək. Bu gün layihəyə start verilir. Artıq ilkin araşdırmalar aparılıb. Bu, dağılmış Ağalı kəndidir. Bərpa ediləcək birinci kənd məhz bu kənddir. Dövlətimizin başçısına Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra olunacaq "ağıllı kənd" layihəsi barədə məlumat verildi. Bildirildi ki, kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir.

■ **Daha sonra dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Laçın rayonuna yola düşdülər.**

### Güləbirddə ilk Su-Elektrik Stansiyası

**Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Güləbird kəndində Azərbaycan Bayrağını qaldırdı və çıxış etdi.**

- Bu gün mən azad edilmiş torpaqlara yenidən gəlmişəm. Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin. Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur.

Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilmişdir və birinci mərhələ başa çatıb. "Azərişıq" artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün "Azərenerji" Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir. Bu gün isə Laçın rayonunun cənub hissəsindəyik, Güləbird kəndinin ərazisində. Bu gün Güləbird kəndində Su Elektrik Stansiyasının açılışıdır. Laçın rayonu işğaldan azad olunandan heç iki ay keçməmiş - ay yarımdan sonra artıq burada Su Elektrik Stansiyası istismara verilir. Bu Su Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Kiçik su elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya orta həcmli stansiya sayıla bilər. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranır və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik.

Kəlbəcər-Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir və vaxtilə burada bir çox stansiyalar olub. Mənfur düşmən də işğal dövründə bu stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində - dekabrın 1-nə qədər demək olar ki, bütün bu su-elektrik stansiyalarını darmadağın edib, avadanlığı buradan çıxarıb, stansiyaların binalarını da dağıdıb. O cümlədən Güləbird Su Elektrik Stansiyası düşmən tərəfindən dağıdılmışdır. Əks-təqdirdə, bu stansiya elə dekabrın 1-dən bizə xidmət göstərəcəkdi. Ancaq verilən tapşırıqlarım qısa müddət ərzində yerinə yetirildi və bu gün biz 8 meqavat gücündə Güləbird Su Elektrik Stansiyasının açılışını qeyd edirik. Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik. Əgər biz nəzərdə tutduğumuz digər layihələrə də nəzər salsaq görərik ki, bərpaolunan enerji növlərinin bu bölgədə çox böyük potensialı var. Onların arasında ən böyük potensiala "Xudafərin" və "Qız qalası" su elektrik stansiyaları malik olacaqdır. Bu stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik. Yaxın gələcəkdə bu su elektrik stansiyaları tikiləcək və beləliklə, Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaqdır. Yəni, biz bir neçə ildən sonra 120 meqavat "Xudafərin" və "Qız qalası" stansiyalarından, 120 meqavat isə Kəlbəcər və Laçın rayonlarındakı su elektrik stansiyalarından alacağıq. Bu, 240 meqavat generasiya gücü deməkdir və bunun üstünlüyü odur ki, bu, su elektrik stansiyalarıdır və enerjinin maya dəyəri çox aşağıdır. Bununla paralel olaraq, artıq göstəriş vermişəm ki, bizim azad edilmiş bütün digər torpaqlarda bərpaolunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilsin. Belə bir göstəriş verildi və bu gün Zəngilan rayonunda birinci pilot "ağıllı kənd" layihəsi də məhz bərpaolunan enerji ilə təchiz ediləcəkdir.

### "Yaşıl enerji" zonası

**Dövlət başçısının sözlərinə görə, azad edilmiş torpaqlar "yaşıl enerji" zonası olacaq:**

- Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər.



**Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik.

Mən bu proqramı elan edəndə bunu nəzərdə tuturdum və bu gün birinci layihə - bax, orada gördüyünüz Güləbird Su-Elektrik Stansiyası artıq istismara verilir.

Bizim böyük planlarımız var. Biz bərpa işlərinə start verdik. Çalışacağıq ki, minalardan təmizləmə işləri qısa müddət ərzində başa çatsın, dəymiş ziyanın qiymətləndirilməsi aparılsın və bununla paralel olaraq, artıq infrastruktur layihələrinə start verildi. Bu gün Horadizdə Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyuldu. Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək.

### Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti

**Çxışına davam edən Prezident daha sonra deyib:**

- Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti bundan ibarətdir - biz həm doğma torpaqlarımızı işğalçılardan azad etdik, düşməni torpaqlarımızdan qovduq, həm də ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdik, xalqımızın əyilməz ruhunu göstərdik. Eyni zamanda, ölkəmizin gələcəyi ilə bağlı strateji hədəflərə çatmaq üçün əməli addımlar ataraq önəmli sənədləri imzaladıq. Noyabrın 10-da imzalanmış Birgə Bəyanat, əlbəttə ki, Laçın, Kəlbəcər və Ağdam rayonunun qaytarılmasını təmin etdi, bir güllə atmadan biz bu torpaqlara qayıtdıq.

Eyni zamanda, Azərbaycanın onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşməsi də məhz o Bəyanatda təsbit olunur. Həmçinin bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaqdır. Biz üç il yarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istismara verdik. Bu da tarixi nailiyyət idi. Tarixdə ilk dəfə biz Azərbaycanı və Türkiyəni dəmir yolu ilə birləşdirdik. İndi isə ikinci dəmir yolu çəkiləcək və eyni zamanda, bu yoldan bütün bölgə ölkələri istifadə edə bilərlər. Bölgə ölkələri bu yolun tikintisinə də böyük maraqla yanaşırlar. Demək olar ki, bizim bölgəmizdə yerləşən ölkələr bu layihəyə öz müsbət qiymətini vermişlər.

Biz təklif etmişdik ki, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər.

Onu da bildirməliyəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edərək yüklər daşınmağa başlamışdır. Görün, biz nə qədər böyük uzaqgörənlik göstərmişdik, böyük iradə göstərmişdik. Eyni zamanda, maliyyə resurslarını səfərbər etmişdik və bu dəmir yolları bağlantılarını biz təmin edirik. Bu, ölkəmiz üçün lazımdır. Çünki bu, ölkəmizin geosiyasi əhəmiyyətini artırır, iqtisadi gücünü artırır. Çünki biz etibarlı tranzit ölkəsi kimi bundan böyük maliyyə gəliri əldə edəcəyik, eyni zamanda, bölgədə sabitliyin və sülhün təmin edilməsi üçün də bunun çox böyük əhəmiyyəti var.

### "Biz erməni faşizmini məhv etmişik"

**Bu, eyni zamanda, ona görə önəmlidir ki, bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır.**

Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıbdır. Bu, xalqımızın, Ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür. Biz döyüş meydanında Qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik. Ermənistanı məğlub edib məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını məcbur olub bizə qaytarsın. Çünki danışıqlar zamanı heç vaxt Laçın və Kəlbəcər rayonlarını bizə qaytarmaq istəmirdi. Danışıqlarda razılığa gəlməməsinin əsas səbəbi də məhz bunda idi. Əfsuslar olsun ki, Ermənistanın və onun bəzi xarici havadarlarının mövqeyi ondan ibarət idi ki, beş rayon Azərbaycana qaytarılsın, Azərbaycan bununla kifayətlənsin və Dağlıq Qarabağa nə vaxtsa müstəqillik verilsin, Kəlbəcər və Laçın rayonları Ermənistanın əbədi nəzarəti altında qalsın. Mən bu təklifi rədd etdim. Həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik. Laçın rayonunu qaytarmaq fikirləri belə yox idi onların. Biz gəldiyim yolla gələrək, yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək bax, buralara gəldik. Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdik, Güləbird kəndini azad etdik. Burada Səfiyan və Türklər kəndləri yerləşir, onları da azad etdik və Laçın dəhlizinə nəzarət etmək üçün hərbi plasdarm yaratdıq və artıq Laçın dəhlizi atəşimiz altında idi. Faktiki olaraq bu istiqamətdən hərəkət edərək biz strateji əməliyyatlarımızı aparmışdıq. Eyni zamanda, əks tərəfdən - Xocavənd rayonundan Şuşa şəhərinə gedərək, dağlardan, dərələrdən keçərək uğurlu əməliyyat apara bilmişik. Laçın rayonunun bax, bu cənub hissəsi hərbi əməliyyat nəticəsində azad edilmişdir. Biz döyüş meydanında düşməni məğlub etdik və tarixi ədaləti bərpa etdik.

Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

■ **Sonra Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su-Elektrik Stansiyasının açılışında iştirak etdi.** Sonra dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisinə gəldilər. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkdilər. Sonra dövlətimizin başçısı, birinci xanım və qızları Bəsitçaya balıq buraxdılar.

### "20-25 min hektarda əkin işləri aparılacaq"

**Sonra dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunun Soltanlı kəndinə yola düşdülər.**

Prezident İlham Əliyev dedi:

- Tapşırıq verilib tədbirlər görülsün ki, bu günə qədər suvarılmayan 100 min hektar torpaq sahələrinə su verilsin. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar. Evləri də, təbiəti də bərpa edəcəyik. Eyni zamanda, göstəriş vermişdim ki, vaxt itirmədən payızlıq əkin də aparılsın. Biz qısa



müddət ərzində bütün imkanlarımızı, texnikanı, işçi qüvvəsini səfərbər etmişik və 7 min hektarda əkin işləri aparılmışdır. O əkin sahələrinə də baxacağam. Builki mövsümdə təqribən 20-25 min hektarda əkin işləri aparılacaq. Yəni, biz vaxt itirmədən kənd təsərrüfatını dirçəldəcəyik. Əlbəttə ki, azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür. İşğalçılar bizim torpağımızdan da istifadə edib qanunsuz gəlirlər əldə etmişdilər. İşğal dövründə ən azı 90 min hektarda taxıl əkilmişdi. Buna da son qoyuldu. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək.

Cəbrayıl rayonunun Soltanlı kəndinin ərazisinə gələn Prezident İlham Əliyevə işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülən işlər barədə məlumat verildi. Bildirildi ki, hazırda əkin sahələrinin monitorinqi davam etdirilir. Əlavə əkin sahələri müəyyən olunduqca yenilənmiş təkliflər verilir.

## Siyasət



***Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Münhen Təhlükəsizlik Konfransı çərçivəsində baş tutan tarixi debatdan 1 il ötür. Dağlıq Qarabağ məsələsinin müzakirə edildiyi və tarixə Münhen görüşü kimi düşən həmin debat, hər iki ölkənin və liderlərinin nəyə qadir olduğunu ortaya qoymaqla, dünyaya erməni işğalçılarının iddia etdikləri Dağlıq Qarabağın hansı dövlətin ərazisi olduğunu, hansı dövlətin işğalçılıq siyasəti yürütdüyünü hansı Prezidentin və yaxud baş nazirinin haqlı olduğunu çılpaqlığı ilə ortaya qoydu.***

# Münhendən başlayan Zəfər yolu

Qeyd edək ki, Münhendə ABŞ-Rusiya Fondunun prezidenti Celeste Wallanderin moderator olduğu görüş vaxtı tərəflər münaqişənin tarixi köklərinə nəzər salıb.

Prezident İlham Əliyev məlum debatda dünya ictimaiyyətinə səslənərək mübahisənin beynəlxalq məhkəməyə çıxarılmasını istisna etməmişdi. Prezident bildirmişdi ki, Azərbaycan danışıqlar prosesinə sadiqdir, buna görə də danışıqlar yolu ilə ərazi bütövlüyümüzü bərpa edə biləcəyimizə ümidləri itirməmişik. Prezident eyni zamanda 1 il əvvəl Münhendə qeyd etmişdi ki, belə bir ümidlər hələ mövcud olduğu üçün" məhkəməyə müraciət "yəqin ki, ən yaxşı seçim" deyil. Ancaq Ermənistan tərəfinin yeni yanaşması nəticəsində danışıqlar tamamilə pozulacaqsa, əlbəttə ki, bu fürsət nəzərdən keçirilə bilər".



**Fikrət Sadıqov,**
politoloq

■ **Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Prezident İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla baş tutan tarixi görüşünün nəticələrini hafta.az-a şərh edən politoloq Fikrət Sadıqov bu məsələnin təhlilinin əslində geniş bir disertasiya mövzusu olduğunu deyib. Politoloq bildirib ki, dövlət başçımız məlum konfransda Ermənistanın baş naziri Nikol Paşinyanı elə alçaltdı ki, bu şəxs o görüşü nəinki idiyə qədər, bütün ömrü boyu yadda saxlayacaq.**

"Nə qədər yaddaşı pis olsa da, düşünürəm ki, bu, yaddan silinən məqamlar deyil. Həm peşəkarlıq, həm ingilis dilinin səviyyəsi, həm tarixi aspektlərin gündəmə gətirilməsi baxımından əlbəttə ki, bizim dövlət başçımız qat-qat üstün idi. Bu məsələni tək biz demirik, hətta Ermənistanın bir sıra ekspertləri həmin görüşdən sonra Paşinyanı tənqid atəşinə tutdu.

Onu Ermənistanın özündə də biabır elədilər ki, "sən debata çıxan zaman faktiki olaraq uduzan bir fiqura çevrildin və özünü yox Ermənistanı biabır elədin". F.Sadıqov hesab edir ki, Ermənistanın bu gün cəbhədə baş verən uğursuzluğunun startı məhz Prezident İlham Əliyevlə vaş tutan debatda qoyuldu. Münhendə Azərbaycan Prezidentinə məğlub olan Ermənistan, baş nazirinin timsalında son zərbəsini "Dəmir Yumruq"dan aldı.

"Bu reallıqdır və təbii ki, dövlət başçısı açıq şəkildə bəyan eləd ki, Azərbaycan torpaqları işğal altındadır, Azərbaycan bununla heç vaxt barışmayacaq, Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək hüququ var və heç bir qüvvə bu yolda bizi dayandıra bilməz. Prezident bu çıxışını heç də bir şüar kimi səsləndirmədi. Konkret tarixi faktlar, beynəlxalq hüquq normaları, prinsiplər əsasında və BMT-də qəbul olunan 4 əsas qətnamənin yerinə yetirilməməsini də yada salaraq beynəlxalq aləmə haqq səsimizi çatdırdı. Dünya ictimaiyyəti hər iki liderin mövqeyini müqayisə elədilər. Prezident Azərbaycanın sülh istədiyini bəyan edərək, Ermənistanı da sülhə dəvət etdi. Bəyan elədi ki, Ermənistan Qarabağda yerləşdirdikləri silahlı quldur dəstələrini çıxarmalıdır. O zaman Paşinyan, hətta Qarabağda erməni hərbçiləri deyil, özünü madafiə dəstələrinin olması ilə bağlı cəfəng bir fikir də işlətmişdi. Təbii ki, Prezident bir il əvvəl Münhendə dediyi sözləri həyata keçirdi. Biz 30 ildir torpaqlarımızın işğala məruz qalması ilə bağlı məsələni deyirdik. Görünən odur ki, ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri, beynəlxalq təşkilatlar buna ciddi şəkildə yanaşmadılar. Özümüz BMT TŞ-nın qəbul etdikləri qətnamələri icra etdik. Təbii ki, Münhen görüşü Paşinyan hakimiyyətinin siyasi karyerasında sonunun başlanması idi. Sözügedən debat müəyyən dərəcədə Ermənisatana xəbərdarıq idi. Xəbərdarlıqdan dərs götürmədiyinə görə də 44 günlük müharibədə payını aldı".

Politoloq bildirir ki, Prezidentin də dediyi kimi, bundansonrakı məqsədimiz işğaldan azad edilən torpaqlarda quruculuq işləri aparmaq, o yerləri dirçəltmək, yaşatmaqdır. Əhalinin sosial, iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün dövlət səviyyəli işlərə başlanıldığını deyən F.Sadıqov bildirib ki, indi keçmişə deyil, gələcəyə baxmalıyıq. Əlimizdən gələni etməliyik ki, bu məsələdən də başucalığı ilə çıxaq.

Politoloq Münhen görüşündən başlanan diplomatik uğurun, hərbi meydanda zəfərlə nəticələnməsi ilə yanaşı, hazırda Qarabağın tam şəkildə Azərbaycanın idarəçiliyinə keçməsi üçün daha gərgin diplomatik mübarizənin aparıldığını önə çəkib. F.Sadıqov bildirib ki, bu gün müharizəmiz bitməyib və sülhməramlı qüvvələrin də daxil olduğu Qarabağda tam sülhü bərqərar etmək üçün Azərbaycanın dövlətinin üzərinə ciddi işlər düşür.

"Torpaqlarımızı azad etmişiksə, ərazi bütövlüyümüzü bərpa etmişiksə, digər məsələləri də həll edəcəyik. Təbii ki, Qarabağda qalan erməni silahlı dəstələrinin sülhməramlılar tərəfindən tərksilah edilməməsini normal qəbul etmirik. Bu bizi qıcıqlandıran məqamlardır. Düşünürəm ki, əgər bu qədər ərazini bərpa etmişiksə, biz qalan ərazilərimizə də nəzarət edəcəyik. Həmin istiqamətdə işlər gedir. Rəsmi Yerevan da bəyan edib ki, öz əsgərlərini Qarabağa göndərməyəcək, bu bizim qələbəmizdir. Getdikcə məqsədimizə nail oluruq. Ermənilər başa düşürlər ki, onların Qarabağda torpağı yoxdur və gəlib burda ölmələrinə də gərək yoxdur. Yaxın zamanlarda Şuşaya, Xankəndinə, Xocalıya qayıtmalıyıq və Azərbaycan bu istiqamətdə ciddi addımlar atmalıdır".

Politoloq bu gün erməni separatçılarının Qarabağda status-kvonu bərpa etmək istəyi ilə bağlı cəfəng fərziyyələr irəli sürməsini və ATƏT-in Minsk Qrupunun canlanması istiqamətdində addımların atılmasını istisan etməyib. O, bildirib ki, bütün bunlara baxmayaraq Azərbaycan dövləti, xalqı, öz dəmir yumruğu ilə bu problemlərin də öhtəsindən gələcək.

"Təbii ki, biz Minsk Qrupuna qarşı müharibə elan edə bilmərik. Bu qrupun arada müəyyən bəyanatlar verdiyini müşahidə edirik. O da məlumdur ki, bir qədər əvvəl "Laçın dəhlizi" ilə Qarabağa getmək istəyən fransalı jurnalistlər sülhməramlılar tərəfindən geri qaytarıldılar. Jurnalistlər Fransa səfirliyinə şikayət elədilər. Paşinyana zəng edildi, o da dedi ki, biz artıq güсüzük və Qarabağa səfərləri gərək Bakı ilə razılaşdırasınız.

Təbii ki, bunun özü də bizim diplomatiyanın uğurudur. Amma belə hallar hələ olacaq. Hələ ki, Fransanın bizə olan mövqeyi bəllidir. Fransa, Niderland Parlamenti Dağlıq Qarabağı tanıma haqqında qərar qəbul edib. ABŞ-ın bir neçə senatı Azərbaycana qarşı bir neçə ürəkbulandırıcı bəyanatlar səsləndirib. Hələ də bizə qarşı ürəkbulandırıcı rol oynayan qüvvələr var. Biz belə bir böyük qələbəni qazanmışıqsa, digər məsələlərin nəzarətindən çıxmasına icazə verə bilmərik. Biz güclü diplomatik işlərimizi davam etdirməliyik. Cəmiyyət olaraq biz sülhməramlıların da fəaliyyətinə nəzarət etməli və yanlışların aradan qaldırılmasına çalışmalıyıq. Əzas vəzifəmiz xoşagəlməz halların qarşısını almaqdır. Düşmənin, onun havadarlarının hər addımına reaksiya verməliyik. Sülhməramlıların fəaliyyətinə də nəzarət etməliyik. Biz bundan sonra özümüzü hücumçu qüvvə kimi göstərməliyik.

Bir il əvvəl Münhendə başladığımız diplomatik uğur, bu gün Qarabağda tam zəfərlə nəticələnməlidir".

> *Münhendə Azərbaycan Prezidentinə məğlub olan Ermənistanın baş naziri son zərbəsini "Dəmir Yumruq"dan aldı*
>
> *1 il əvvəl Münhendə başladığımız diplomatik uğur, bu gün Qarabağda tam zəfərlə nəticələnməlidir*

✍ *Tahirə Qafarlı*

# Qələbə Prezident İlham Əliyevin siyasətinin zəfəridir

**2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilmiş, görüşdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan iştirak etmişdilər.**

O vaxtdan keçən bir il xalqımızın həyatında ən əlamətdar illərdən biri oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz torpaqlarımızı erməni işğalından azad etdi.

■ **Rusiyalı jurnalist və hərbi ekspert, "Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko AZƏRTAC-a qeyd edib ki, Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında tarixi debatlardan keçən bir il ərzində Ermənistan-Azərbaycan münaqişəsinin həllində hər şey köklü surətdə dəyişib.** "Bir il əvvəl Münhen Təhlükəsizlik Konfransında Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan siyasi opponentlər kimi çıxış edirdilərsə, hər kəs öz ölkəsinin mövqeyini təmsil edirdisə, 44 günlük müharibənin nəticələri isə hər şeyi yerbəyer etdi - Azərbaycan və Prezident İlham Əliyev hərbi və siyasi qələbə qazandılar, Paşinyan və Ermənistan isə təslim oldular. Azərbaycan beynəlxalq hüquq prinsiplərinə, BMT Nizamnaməsinin baza prinsiplərinə əsaslanaraq, ölkənin, ordunun, xalqın imkanlarına arxalanaraq bu məsələni həll etdi. İndi hər şey öz yerini aldı", - deyə o bildirib. Ekspert xatırladıb ki, hələ Münhen konfransından əvvəl Azərbaycan Prezidenti İlham Əliyev "Valday" beynəlxalq diskussiya klubunun XVI illik iclasının plenar sessiyasında çıxış edərkən Ermənistanın baş nazirinin populist fikirlərinə cavab olaraq bildirdi: "Qarabağ Azərbaycandır və nida işarəsi".

"İlham Əliyev bir Prezident və Ali Baş Komandan kimi təsdiq edib ki, Qarabağ Azərbaycandır. Bugünkü reallıq məhz belədir. 44 günlük müharibənin nəticələri bütün dünyada Azərbaycana olan hörmət və nüfuzu əhəmiyyətli dərəcədə artırdı, çünki ölkənin öz ərazi bütövlüyünü bərpa etməsi müasir tarixdə nadir görünməmiş bir haldır. Biz ATƏT-in Minsk qrupunun necə işlədiyini gördük, biz bu qanlı və uzun sürən münaqişənin siyasi həllinə dair müxtəlif formatlı təklifləri gördük. Biz erməni siyasətçilərinin kobudluğunu gördük, Paşinyanın hakimiyyətə gəlişindən sonra biz görünməmiş dərəcədə həyasızlıq, kobudluq və özünə arxayınlıq müşahidə etdik, Paşinyanın Şuşa şəhərində separatçı rejimin andiçmə mərasimindəki təhqiramiz rəqslərini, yeni müharibə baş verərsə, Azərbaycanın öz ərazilərinin daha xeyli hissəsini itirəcəyi barədə bəyanatını xatırlayırıq. Ermənistanın Azərbaycanın əsas obyektlərinə preventiv zərbələr endirmək hüququna malik olduğunu deyən müdafiə naziri Tonoyanın da sözlərini xatırlayırıq. Bütün bunlar Azərbaycanın həyata keçirdiyi "Dəmir yumruq" əkshücum əməliyyatı nəticəsində dağıldı", - deyə İ.Korotçenko bildirib. Politoloqun vurğuladığına görə, Azərbaycan bu yumruqla erməni təcavüzkarına sarsıdıcı zərbə endirdi və Ermənistan çox sayda ölü və yaralı itirərək təslim olmaq məcburiyyətində qaldı.



**İqor Korotçenko,**
rusiyalı hərbi ekspert

> *On min erməni fərarisi - ay yarım ərzində bu sayda fərari heç bir müharibədə görünməmişdi*

"Erməni əsgəri döyüş ruhunu itirdi. On min erməni fərarisi - ay yarım ərzində bu sayda fərari heç bir müharibədə görünməmişdi. Biz Azərbaycan Prezidenti və Ali Baş Komandan İlham Əliyevin siyasətinin zəfərini, Azərbaycan generallarının hərb sənətinin zəfərini görürük. Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbəsi tarixən əvvəlcədən müəyyən edilmişdi və qaçılmaz idi. Prezident İlham Əliyevin "Valday" Forumunda dediyi "Qarabağ Azərbaycandır və nida işarəsi" sözləri yalnız peyğəmbərcəsinə deyilmiş söz deyildi, bu, dediyinə cavabdeh olan, buna əməli işlərdə nail olan liderin sözləri idi", - deyə İqor Korotçenko əlavə edib.

## PREZİDENTƏ YAZIRLAR



**Arif Rəhimzadə, Bakı:**

- Çox hörmətli cənab Prezident.

İcazə verin, ölkəmizin ali mükafatı? "Şərəf" ordeni ilə təltif olunduğuma görə Sizə sonsuz minnətdarlığımı və təşəkkürümü bildirim. Mükafatın verilməsi fəaliyyətinizin ən gərgin dövrünə - dərin düşünülmüş və parlaq şəkildə həyata keçirdiyiniz iqtisadi, hərbi və beynəlxalq siyasətinizin nəticəsində əldə olunan tarixi Qələbə sevincini yaşadığımız bir vaxta düşdüyünə görə mənim üçün xüsusilə əlamətdar və qiymətlidir.

Cənab Prezident, ölkə və xalq üçün etdiyiniz hər şeyə, yüksək insani münasibətinizə görə Sizə təşəkkür edirəm.

**Əliyar Əhmədov, Sabirabad:**

- Hörmətli cənab Prezident.

Vətən Müharibəsində qazandığımız parlaq Qələbəyə görə Sizi və bütün xalqımızı ürəkdən təbrik edirəm. Siz bu çətin və məsuliyyətli sınaqdan alnıaçıq və üzüağ çıxdınız. Xalqımıza böyük uğur qazandırdınız.

İstər müharibə dövründə, istərsə də tarixi Zəfərdən sonra xüsusi maraqla dinlədiyim bütün çıxışlarınızda və müsahibələrinizdə ifadə olunan aydın məntiq, sərrast cavablar, xalqımıza, ordumuza sarsılmaz inam, istənilən vəziyyətdə manevr etmək qabiliyyəti müharibənin gedişində xüsusi rol oynadı. Ali Baş Komandan kimi Siz həm siyasi-ideoloji cəbhədə, həm də informasiya müharibəsində qeyri-adi istedad və bacarıq nümayiş etdirməklə xalqımızı qalibiyyətə qovuşdurdunuz. Sizinlə fəxr edirəm və qürur duyuram. Uca Tanrı Sizin kölgənizi başımızın üzərindən əskik etməsin.

İnanırıq ki, xalqımız və dövlətimiz Sizin liderliyinizlə hələ çox qələbələrə, uğurlara imza atacaqdır. Yolunuz açıq və işıqlı olsun, cənab Prezident!

**Allahverdi İsayev, Naftalan:**

- Möhtərəm cənab Prezident.

Mən bir gənc olaraq çox sevinirəm ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi gənclər siyasəti bu gün Sizin tərəfinizdən uğurla davam etdirilir. Məhz həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır.

Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai siyasi həyatında daha böyük rol oynayır. Sizin xalqa göstərdiyiniz diqqət və qayğı biz vətəndaşların daha yaxşı yaşamasına, rifahımızın yüksəlməsinə xidmət edir. Bütün bunlara görə Sizə dərin təşəkkürümü bildirirəm.

**Sizi sevir və dəstəkləyirik.**

**Ahu Cəmilli, Bakı:**

- Çox hörmətli cənab Prezident.

Mənim 7 yaşım var. Mən yaşım az olsa da, Sizin bütün çıxışlarınıza diqqətlə baxıram. Biz erməni təcavüzkarlarını Sizin dəmir yumruğunuz sayəsində "iti qovan kimi" qovduq! Bu Qələbəni Sizin sayənizdə qazandıq.

20 Yanvar və digər hadisələr barədə də eşitmişəm. Amma xalqımızın çox güclü olduğuna və Siz arxamızda olduğunuza görə heç nədən qorxmuruq.

Siz bizi qalib etdiniz, Qarabağı da azad etdiniz. Siz həmişə dediyiniz sözün üstündə durursunuz, yenə də sözünüzün üstündə durdunuz! Hər şey üçün təşəkkür edirəm!

**Qarabağ Azərbaycandır!**

**Sevda Rzayeva, Gəncə:**

- Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev.

Bu məktubu Sizə yazmağı özümə borc bildim. Sizin müdrik siyasətiniz və qəhrəman əsgərlərimiz sayəsində Azərbaycan xalqı Qələbə əldə etdi! Bu qələbə münasibətilə Sizi və əsgərlərimizi, Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Sizin müharibə dövründə müsahibələrinizi, xarici jurnalistlərin suallarına verdiyiniz əsaslı və dolğun cavablarınızı hər gün televiziya vasitəsilə izləyirdik. Güclü və savadlı Prezidentimizin olması ilə fəxr edirik!

Uca Allahım Sizə həmişə yar və yardımçı olsun! Allah Sizi və əsgərlərimizi qorusun. Şəhidlərimizə isə Allahdan rəhmət diləyirəm. Amin!

**Cənab Prezident, mən və ailə üzvlərim hər zaman Sizi dəstəkləyirik.**

**Telli Salahova, Şirvan:**

- Hörmətli Prezident,

Bütün dünya ölkələri üçün ötən il çox çətin bir il oldu. Dünyanı cənginə almış COVID-19 pandemiyası bizim ölkədən də yan keçmədi. İndiyədək bütün dünya bu virusla mübarizə aparır. Azərbaycan da bu virusla mübarizə aparır. Sizin göstərişinizlə görülən qabaqlayıcı tədbirlər nəticəsində ölkəmiz az itki ilə bu virusla savaşır. Artıq Azərbaycanda da pandemiyaya qarşı tətbiq olunan vaksinasiyaya başlanılır. Ümid edirik və inanırıq ki, dünyanı cənginə alan pandemiya bitəcək və bizlər əvvəlki həyatımıza qayıdacağıq.

Biz Sizə, Sizin yürütdüyünüz siyasətə inanırıq. Bütün Azərbaycan xalqı Sizinlə qürur duyur və daima Sizi dəstəkləyirik.

Əziz Prezidentimiz, böyük bir bəla olan koronavirusun kütləvi yayılmasının qarşısını almaq məqsədilə görülən işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

**Ağabala Ağayev, Sabirabad:**

- Möhtərəm cənab Prezident.

Müdrik siyasətiniz və qətiyyətli mövqeyiniz, qüdrətli Ordumuzun qəhrəmanlığı sayəsində qazandığımız böyük Zəfər münasibətilə Sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı kimi Siz sərkərdəlik məharətinizlə, diplomatik bacarığınızla, dərin analitik təfəkkürünüzlə xalqımızı qalibiyyətə qovuşdurdunuz, ata vəsiyyətini şərəflə yerinə yetirdiniz. Bizə qürurla və sevinclə yaşatdığınız bu möhtəşəm Qələbə əzminə görə Sizə sonsuz təşəkkürlərimi bildirirəm.

Sizə möhkəm cansağlığı, uzun ömür arzulayır, gələcək işlərinizdə yeni-yeni uğurlar diləyirəm.

**Tanrı Sizi qorusun!**

# Əmək bazarında gender bərabərliyi

## Layihə

*Hindistanın dünyaca məşhur insan haqları müdafiəçisi Mahatma Qandi deyib: "Qadını "zəif cins" olaraq görmək bir böhtan və kişilərin qadınlara qarşı etdiyi haqsızlıqdır. Əgər güc dedikdə kobud qüvvət nəzərdə tutulursa, əlbəttə, qadınlar kişilərdən daha az vəhşidirlər, ancaq güc əgər əxlaqi bir gücdürsə, o zaman qadınlar kişilərdən düşünə bilməyəcəyiniz qədər üstündür. Qadınlar bizdən daha fədakar, daha cəfakar, daha cəsur insanlar deyilmi? Qadınlar olmadan kişilər ola bilərmi?". Qandinin bu fikirləri səsləndirməsindən təxminən bir əsrə yaxın vaxt keçir. Bəzi cəmiyyətlərdə bu gün də kişi qadından üstün tutulur və hesab edilir ki, qadın "zəif cins" olaraq heç vaxt kişilərlə bərabər səviyyədə tutula bilməz.*



Bu səbəbdəndir ki, XXI əsrdə yaşamağımıza baxmayaraq, gender bərabərliyi məsələsi hələ də dünya dövlətləri, o cümlədən ölkəmiz üçün aktual mövzu olaraq qalmaqdadır. Qeyd edək ki, gender dedikdə, ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadın münasibətlərinin sosial cəhəti başa düşülür. Gender bərabərliyi isə qadın və kişilərin hüquq bərabərliyi, bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar, onların cəmiyyətdə bərabər sosial vəziyyəti deməkdir. Bərabər imkanlara gəlincə, burada insan hüquqlarının həyata keçirilməsində qadınlar və kişilər üçün yaradılan bərabər şərait, təminatlar nəzərdə tutulur. Azərbaycanda gender bərabərliyi "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunla tənzimlənir.

2006-cı ildə Prezident İlham Əliyev tərəfindən təsdiqlənərək qüvvəyə minən bu qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir. Bu qanunun 5-ci maddəsində "Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri", 6-cı maddəsində isə "Gender bərabərliyinin təmin edilməsində dövlətin vəzifələri" açıq şəkildə göstərilib. Qeyd olunub ki, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişilərlə qadınlara bərabər imkanların yaradılması, dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi üçün dövlət müxtəlif tədbirlər görür.



### Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü seçmək hüququ var

### Hər 100 kişidən 78-i, hər 100 qadından isə 63-ü iqtisadi cəhətdən fəaldır

**Statistika Komitəsinin məlumatına görə, 2020-ci ilin əvvəlində Azərbaycanda əhalinin 50.1 faizini qadınlar təşkil edib. Sonuncu açıqlanan məlumatlara əsasən, ölkədə iqtisadi fəal əhalinin 48.6, məşğul əhalinin isə 48.1 faizi qadınlardan ibarətdir.** Burada maraqlı məqam ondan ibarətdir ki, əməkqabiliyyətli yaşda hər 100 kişidən 78 nəfəri, hər 100 qadından isə 63 nəfəri iqtisadi cəhətdən fəaldır. İqtisadi cəhətdən qeyri-fəal, heç bir rəsmi fəaliyyətə cəlb edilməyən qadınların 632 min nəfəri ev işlərini yerinə yetirən, uşaqlara və digər ailə üzvlərinə qulluq edənlər, yəni, "evdar" statusu olanlardır. Bu kateqoriyadan olan kişilərin sayı isə 33 min nəfərdir. Rəsmi göstəricilərə görə qadın işsizlərin sayı da kişilərə nisbətən 40 faiz çoxdur. Azərbaycanda iqtisadi fəaliyyət növlərinə görə muzdla işləyən kişi və qadınların nisbəti isə aşağıdakı kimidir:

*İqtisadiyyat üzrə kişilər 59.2 faiz, qadınlar 40,8 faiz;*

*Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə kişilər 77,9 faiz, qadınlar 22,1 faiz;*

*Mədənçıxarma sənayesi üzrə kişilər 86,6 faiz, qadınlar 13,4 faiz;*

*Emal sənayesi üzrə kişilər 75,1 faiz, qadınlar 24,9 faiz;*

*Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı üzrə kişilər 89,0 faiz, qadınlar 11,0 faiz;*

*Su təchizatı, tullantıların təmizlənməsi və emalı üzrə kişilər 64,0 faiz, qadınlar 36,0 faiz;*

*Tikinti sahəsi üzrə kişilər 92,9 faiz, qadınlar 7,1 faiz;*

*Ticarət, nəqliyyat vasitələrinin təmiri üzrə kişilər 75,2 faiz, qadınlar 24,8 faiz;*

*Nəqliyyat və anbar təsərrüfatı üzrə kişilər 82,8 faiz, qadınlar 17,2 faiz;*

*Turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə kişilər 68,9, qadınlar 31,1 faiz;*

*İnformasiya və rabitə üzrə kişilər 70,3 faiz, qadınlar 29,7 faiz;*

*Maliyyə və sığorta fəaliyyəti üzrə kişilər 65,3 faiz, qadınlar 34,7 faiz;*

*Daşınmaz əmlakla əlaqədar əməliyyatlar üzrə kişilər 64,7 faiz, qadınlar 35,3 faiz;*

*Peşə, elmi və texniki fəaliyyət üzrə kişilər 55,7 faiz qadınlar 44,3 faiz;*

*İnzibati və yardımçı xidmətlərin göstərilməsi üzrə kişilər 68,6 faiz, qadınlar 31,4 faiz;*

*Dövlət idarəetməsi və müdafiə, sosial təminat üzrə kişilər 72,3 faiz, qadınlar 27,7 faiz;*

*Təhsil üzrə kişilər 26,9 faiz, qadınlar 73,1 faiz;*

*Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi üzrə kişilər 22,4 faiz, qadınlar 77,6 faiz;*

*İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət üzrə kişilər 37,1 faiz,qadınlar 62,9 faiz;*

*Digər sahələrdə xidmətlərin göstərilməsi üzrə kişilər 65,7 faiz, qadınlar 34,3 faiz.*

Göründüyü kimi sadəcə üç fəaliyyət növü üzrə qadınların sayı kişilərdən daha çoxdur - təhsil, səhiyyə və sosial xidmətlərin göstərilməsi, istirahət, əyləncə və incəsənət. Çalışan qadınların yarısından çoxu məhz bu üç sahədə fəaliyyət göstərir. Hazırda ölkədəki orta məktəblərdə müəllimlərin 81 faizi, orta ixtisas təhsil müəssisələrində 79 faizi, ali təhsil müəssisələrində isə 55 faizi qadınlardır. Ümumilikdə, təhsil sektorunda 250 minə yaxın qadın çalışır. Həkimlərin isə 66 faizi qadınlardan ibarətdir.

Biznes dünyasında da qadınların mövqeləri kişilərə nəzərən çox zəifdir. Ötən ilin əvvəlinə Azərbaycanda fərdi sahibkarların sayının 914 min nəfər olduğu bildirilib. Onların 198.4 mini (21.7 faiz) qadınlardan, 715 mindən çoxu isə kişilərdən ibarətdir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

### İdarəetmə sahəsində gender balansı

**Bir məqamı vurğulamaq yerinə düşər ki, son illər Azərbaycanda qadınların idarətmədə rolunun ötən dövrlərlə müqayisədə xeyli yüksəldiyini müşahidə edirik.** Məsələn, hazırda Azərbaycanda səlahiyyətlərinə görə, Prezidentdən sonra ikinci şəxs olan I vitse-prezident vəzifəsini qadın icra edir. Bu post 2017-ci ildə yaradılıb və buraya ölkənin Birinci xanımı Mehriban Əliyeva təyin edilib. Mehriban xanım Əliyeva bundan öncə uzun illər parlamentin deputatı da olub. Bundan başqa, Azərbaycanda Ailə, Qadın, Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri və İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman, Dövlət İmtahan Mərkəzi postlarını illərdir qadınlar icra edir. Eyni zamanda, Abşeron rayon icra hakimiyyətinin başçısı vəzifəsini də xanım yerinə yetirir.

Ötən il keçirilən parlament seçkisində Milli Məclisə 22 qadın deputat seçilib. Parlamentin ötən çağırışında isə qadın deputatların sayı 21 olub. Yeni parlamentdə kişi deputatların sayı isə 99-dur. Parlamentdə qadınlar iki komitəyə rəhbərlik edirdilər: Ailə, qadın və uşaq məsələləri komitəsi və Mədəniyyət komitəsi. Bundan əlavə, İlham Əliyevin göstərişi ilə, ölkənin bütün icra hakimiyyəti orqanları başçılarının müavinlərindən azı biri mütləq qadın olmalıdır. 2013-cü ildə bu rəqəm 35 idisə, 2019-cu ildə bu göstərici 76 nəfərə çatıb. Digər tərəfdən, 2019-cu ilin statistikasına əsasən, ölkəmizdə hakim qadınların sayı 78 nəfərdir, başqa sözlə hakimlərin 14 faizi qadındır. Azərbaycanda prokurorluq orqanlarında rütbə nəzərdə tutan vəzifələrdə çalışan işçilərdən 81 nəfəri qadındır. Bu, prokurorluq orqanları işçilərinin sayının 7 faizini təşkil edir. Hazırda 6 qadın prokuror təyin edilib. Ötən illər ərzində nazir müavini olan qadınların sayı 3 nəfərdən 8 nəfərə yüksəlib, 3 səfir və 1 konsul da qadındır.

### Peşələrə qadın-kişi fərqi qoyulmalıdırmı?

**Azərbaycan Respublikası Konstitusiyasında qadın və kişilərin eyni hüquq və azadlıqlara malik olduqları, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə və iş yeri seçmək hüququnun olduğu təsbit edilib.** Buna baxmayaraq bəzi sahələrdə kişilərin sayı qadınlardan dəfələrlə çoxdur. Elə sahələr də var ki, orada ancaq kişiləri görmək mümkündür və yaxud da əksinə. Bəzi sahələrdə qadınların sayı kişilərin sayını dəfələrlə üstələyir. Məsələn, təhsil və səhiyyə sahəsində qadınların, idarəetmə, hüquq mühafizə orqanları, məhkəmə sistemində kişilərin sayı daha çoxdur. Mütəxəssislər bunun əsas səbəbini cəmiyyətdəki bəzi stereotiplərlə əlaqələndirirlər. Onlar hesab edirlər ki, peşələr arasında qadın və kişi fərqinin qoyulması əmək bazarında gender bərabərliyinin pozulması ilə nəticələnir. "Qadın peşəsi", "kişi peşəsi" adı altında ixtisasların ayrılması sonrakı mərhələlərdə vətəndaşlara, xüsusilə qadın və uşaqlara, ümumi halda isə genofonda mənfi təsir edə bilər.

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## "Heç nədən qorxmaq lazım deyil"



**Özümü kifayət qədər yaxşı hiss edirəm, hər şey normaldır. Doğrudur, bəzi hallarda koronavirus əleyhinə peyvənd olunmaqdan ehtiyat edirlər, amma qorxulu heç nə yoxdur. Bu sözləri pravda.az-a açıqlamasında Azərbaycanın keçmiş təhsil naziri Misir Mərdanov deyib.**

M.Mərdanov tövsiyə edir ki, ümumiyyətlə, vaksinasiya ilə bağlı heç nədən qorxmaq lazım deyil: "Peyvənd olunduqdan sonra, sadəcə, ümumi qaydalara əməl etmək kifayətdir. Vaksindən sonra özümü tamamilə rahat hiss edirəm, sağlığımda hansısa mənfi dəyişiklik olmayıb". "Həkim göstəriş verib ki, martın 13-də ikinci dəfə vaksinasiyadan keçmək üçün yenidən müraciət etməliyəm və təbii ki, o müddətə qədər karantin qaydalarına əməl etmək vacibdir: sosial məsafə saxlamaq, tibbi maskadan istifadə etmək və s. Bir şeyi də qeyd edim ki, mən hələ ki koronavirusa yoluxmamışam", - eks-nazir qeyd edib. Qeyd edək ki, fevralın 13-də Azərbaycanın keçmiş təhsil naziri Misir Mərdanov koronavirus əleyhinə peyvənd olunub. Sabiq nazirə COVID-19-a qarşı vaksin Abşeron rayon Mərkəzi xəstəxanasında vurulub.

## Tərtərə dəymiş ziyan tam müəyyənləşib



**İkinci Qarabağ Müharibəsi ərzində Ermənistan silahlı qüvvələrinin dinc sakinlərin olduğu yaşayış məntəqələrini atəşə tutması nəticəsində Tərtər rayonunda mülki obyektlərə dəymiş ziyanın müəyyənləşdirilməsi prosesi başa çatıb.**

Bu barədə Trend-ə açıqlamasında Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində mülki əhaliyə dəyən ziyanın müəyyənləşdirilməsi və aradan qaldırılması ilə bağlı yaradılmış Dövlət Komissiyasının üzvü Qubad Heydərov deyib. O bildirib ki, komissiya üzvləri artıq Tərtərdə ziyan çəkən bütün obyektlərə baxış keçirib:

"Ümumilikdə, 5 705 obyektə baxış keçirilib və onlardan 60-ının tam dağılaraq yararsız hala düşdüyü məlum olub. Sahibkarlıq müəssisələrindən 185-nə ziyan dəyib, 6-sı tam dağılıb. Bundan əlavə, 48 sosial obyektə ziyan dəyib, 2-si tam qəzalı vəziyyətə düşüb, bərpası mümkün deyil.

Erməni təcavüzü nəticəsində rayon ərazisində 161 iribuynuzlu, 393 xırdabuynuzlu, 52 ev quşu, 17 at və 24 arı ailəsi məhv olub. Hadisələr nəticəsində 103 avtomobilə ziyan dəyib".

## Reytinq



**Ötən ilin 31 dekabr tarixinə Azərbaycanda internetin nüfuz səviyyəsi 78,2% təşkil edib. Bu göstərici il ərzində 0,6 faiz bəndi azalıb. Bu barədə "Internet World Stats" beynəlxalq təşkilatının dərc etdiyi qlobal şəbəkə istifadəçilərinin sayına dair hesabatda deyilir.**

Hesabatda qeyd olunur ki, Azərbaycanda internet istifadəçilərinin sayı 7,991 milyona çatıb. Bu göstərici il ərzində 0,02% artıb. Əhali arasında internetin yayılması baxımından Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında Azərbaycan Gürcüstanı, Ermənistanı, Qazaxıstanı, Özbəkistanı, Qırğızıstanı, Tacikistanı və Türkmənistanı qabaqlayır.

## BİR CÜMLƏ-BİR XƏBƏR

■ Səudiyyə Ərəbistanı "COVID-19"a qarşı tədbiq edilən məhdudiyyətlərin müddətini daha 20 gün uzatdığını elan edib, məhdudiyyətlərə toplantıların və əyləncə tədbirlərinin qadağan edilməsi, həmçinin restoran, kafe və kinoteatrların xidmətlərinin bağlanması daxildir.

■ Konqo Demokratik Respublikasının (DRC) şimal-şərqində yerləşən İturi əyalətində islamçı Demokratik Qüvvələr Alyansı (ADF) qruplaşmasının silahlıları yaşayış məntəqəsinə hücum ediblər, hücum zamanı ən az 14 nəfər həlak olub.

■ Space TV-yə yeni rəhbər təyin olunub, Kamil Şahverdiyev kanalın yeni rəhbəri təyin edilib.

■ Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun sabiq sədri Vüqar Səfərli Yeni Azərbaycan Partiyasından (YAP) xaric edilib.

■ ABŞ-ın Türkiyədəki səfiri David Satterfield bu gün Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb, İraqın şimalında PKK terror təşkilatı tərəfindən 13 Türkiyə vətəndaşının qətlə yetirilməsi ilə bağlı ABŞ tərəfinin reaksiyasına dair irad diplomatın diqqətinə çatdırılıb.

■ Ermənistanın xarici işlər naziri Ara Ayvazyan fevralın 17-də Moskvaya səfər edəcək. Səfər çərçivəsində A. Ayvazyan rusiyalı həmkarı Sergey Lavrovla görüşəcək.

■ Mədəniyyət Nazirliyi sistemində yeni kadr təyinatları olub, nazir Anar Kərimovun imzaladığı müvafiq əmrə əsasən Elçin Nəcəfov İsmayıllı Regional Mədəniyyət İdarəsinin, Fərid Qurbanzadə isə Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi vəzifəsinə təyin edilib.

■ 10-13 mart tarixlərində Qətərin paytaxtı Dohada keçirilməli olan idman gimnastikası üzrə Dünya Kuboku yarışı təxirə salınıb, təxirə salmaya səbəb koronavirus pandemiyasıdır.

■ İngiltərə kraliçası II Yelizavetanın nəvəsi Şahzadə Harri və xanımı Meqan Markl ikinci övladlarını gözləyirlər, 14 fevral "Sevgililər günü"ndə edilən açıqlamada cütlüyün "çox xoşbəxt" olduğu bildirilib.

■ 1999-cu ildə Moskvadakı "İnturist" hoteli və "Oxotnıy Ryad" ticarət mərkəzində terror hücumlarının təşkilatçısı Xalid Xuquyev Primorye kolonunda ölü tapılıb.

■ Hacıqabul Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində rayon ərazisində qanunsuz ov edən rayon sakini Əkbər Eyvazov saxlanılıb, saxlanılan şəxsdən "MR-155" markalı ov tüfəngi və 7 ədəd patron aşkar olunaraq götürülüb.

■ İran və Rusiya donanmalarının Hind okeanının şimalında birgə hərbi dəniz təlimləri başlayıb, bu barədə "TASS" agentliyi Rusiyanın Tehrandakı səfirliyinə istinadən məlumat verib.

■ Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 74 yeni yoluxma faktı qeydə alınıb, 106 nəfər müalicə olunaraq sağalıb, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

■ "Ukrayna Beynəlxalq Hava Yolları" aviaşirkəti Kiyev-Bakı-Kiyev marşrutu ilə yay reysləri təqvimini bərpa edir, reyslər martın 28-dən etibarən başlayacaq.

■ Nəsimi rayon icra başçısı Asif Əsgərovun müvafiq əmri ilə Elnur Hüseynov Nəsimi Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdir təyin edilib.

İqtisadiyyat

# İri dövlət şirkətlərinin idarəçiliyində yeni dövr

əvvəli 1-ci səhifədə

İdarə Heyəti 5 üzvdən - sədrdən və digər üzvlərdən ibarətdir. İdarə Heyətinin üzvlərindən biri, eyni zamanda, Azərbaycan İnvestisiya Holdinqinin idarə edilməsinə məsul olan baş icraçı direktordur. İdarə Heyətinin digər üzvlərini, o cümlədən baş icraçı direktoru İdarə Heyəti sədrinin təqdimatı əsasında Müşahidə Şurası vəzifəyə təyin və vəzifədən azad edir. Baş icraçı direktor holdinqin cari fəaliyyətinə rəhbərlik edir.

Nizamnaməyə əsasən, AİH-ə iri dövlət şirkətləri ilə bağlı mühüm səlahiyyətlər verilib. Holdinq onun idarəetməsinə verilmiş dövlət şirkətlərinin və müəssisələrinin, dövlət payı olan təsərrüfat cəmiyyətlərinin vahid prinsiplər əsasında idarə edilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən həyata keçirdikləri investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, onların rəqabət qabiliyyətinin təmin olunması, ma-



Vüqar Bayramov,
millət vəkili, iqtisadçı

liyyə sağlamlığının və dayanıqlılığının yaxşılaşdırılması fəaliyyət göstərən publik hüquqi şəxsdir.

Onun fəaliyyət istiqamətlərini qabaqcıl beynəlxalq təcrübədən istifadə etməklə dövlət müəssisələrində idarəetməni təşkil etmək; dövlət müəssisələrinin maliyyə sağlamlığını və dayanıqlılığını yaxşılaşdırmaq, bu məqsədlə onların maliyyə resurslarını, habelə xarici borcların cəlb olunmasını effektiv meyarlar əsasında idarə etmək; dövlət müəssisələrinin fəaliyyət göstərdiyi xidmətlər bazarına özəl inves-



tisiyaları cəlb etmək, bu məqsədlə dövlət-özəl sektor tərəfdaşlığının inkişafını stimullaşdırmaq; dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi üçün onların səmərəlilik göstəricilərini müəyyən etmək və monitorinqini aparmaq; dövlət müəssisələrinin xərclərinin optimallaşdırılması və maliyyə şəffaflığının təmin edilməsi ilə bağlı tədbirlər görmək; dövlət müəssisələrinin beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artırmaq; dövlət müəssisələrinə dövlətin ayırdığı investisiyalardan səmərəli istifadəyə nəzarət etmək; dövlət müəssisələrinin özəlləşdirilməyə hazırlanmasında iştirak təşkil edir.

### Beynəlxalq təcrübə nə deyir?

**Yeri gəlmişkən, dövlət investisiya holdinqi bir idarəetmə institutu kimi dünyada çoxdan tətbiq olunur. Məsələn, Sinqapur (Temasek), Malayziya (Khazanah), Qazaxıstan (Samruk Kazına) və digərləri uğur nümunələri olaraq qəbul edilir.**

Bu ölkələrdə Dövlət Müəssisələri idarə edən dövlət investisiya holdinqləri beynəlxalq təcrübədə geniş yayılıb. Azərbaycan hökuməti də hər üç ölkənin bu sahədə mövcud olan təcrübəsini yaxından araşdıraraq İnvestisiya Holdinqinin yaradılması barədə qərar qəbul edib. Həmin ölkələrdə tətbiq edilən model dövlət müəssisələri və özəl sektor arasında rəqabətin ədalətli və bərabər şərtlərlə aparılmasını təmin edib. Eyni zamanda, dövlət müəssisələri səmərəli fəaliyyət göstərməklə milli inkişaf hədəflərinə nail olunmasına xidmət edib. Məsələn, Sinqapur dünyanın 20 ən kiçik ölkəsinin siyahısında olsa da, iqtisadi inkişafına görə dünyada lider ölkələrdən sayılır. Bu ölkədə təkcə iri dövlət müəssisələri deyil, kiçik və orta müəssisələr vahid qrupa birləşdirilib. Bu müəssisələrin inkişafında, xüsusən dövlətin apardığı inteqrasiya siyasəti müsbət rol oynayır. Bu, bu cür müəssisələrin qruplara birləşdirilməsi-

> *Dövlət İnvestisiya Holdinqinin yaradılması dövlət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi, şəffaflığın artırılması baxımından çox vacibdir*

ni və ən müasir texnologiyalarla təmin edilməsini əhatə edir. Fikir olduqca sadə və effektivdir: kiçik və ya ortaölçülü bir müəssisə tez-tez yeni bir yüksək texnoloji istehsalını lazımi səviyyədə başlada bilmir. Bir qrup belə müəssisə üçün bunu etmək daha asandır.

Bütün istehsal zəncirini bir-birləri ilə bölüşür və nəticədə genetika, immunologiya, ekologiya, biotexnologiya və elektron sənayesi üçün komponentlərin istehsalı sahələrində çox yaxşı nəticələr əldə edirlər. Sinqapurda, təxminən, 130 000 kiçik və orta müəssisə var. Bu, ölkədəki bütün müəssisələrin 92 faizini təşkil edir. İstehsal olunan məhsulların əlavə dəyərinin, təxminən, 35 faizini və Sinqapur ÜDM-nin 25 faizdən çoxunu təşkil edir. Bundan əlavə, kiçik və orta sahibkarlıq da illik məşğulluq artımının 7 faizini təmin edir. Dövlətin iqtisadiyyatın bu sektorunun inkişafına güclü dəstək verməsi təsadüfi deyil. Hökumət kiçik və orta kateqoriyaya aid olan müəssisələrini beynəlxalq səviyyədə rəqabətədavamlı etməyə çalışır, çünki bu ölkədə əmindirlər ki, rəqabətsiz bir sahibkar bütün dövləti rəqabətsiz edir.

### Rəqabət qabiliyyətli məhsulların istehsalı genişləndirilə bilər

■ **Millət vəkili, iqtisadçı Vüqar Bayramov hesab edir ki, Dövlət İnvestisiya Holdinqinin fəaliyyəti iri dövlət şirkətlərinin idarəçiliyində yeni dövrün başlanması deməkdir:**

"Azərbaycanda dövlət müəssisələrinin rolu kifayət qədər böyükdür. Belə ki, hazırda ölkədə məşğulluğun 25 faizi dövlət müəssisələrinin payına düşür. Dövlət müəssisələri vergi daxilolmalarının formalaşmasında da xüsusi rola malikdir. Dövlət İnvestisiya Holdinqinin yaradılması dövlət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi, şəffaflığın artırılması baxımından çox vacibdir. Bu bizə korporativ idarəetmə metodlarını dövlət idarəetmə müəssisələrində tədbiq etməyə imkan yaradacaq. Bu holdinq hesabatlılığı artıracaq, həmçinin ictimai nəzarət imkanlarının da genişlənməsinə gətirib çıxaracaq. Holdinq konkret olaraq səmərəliliyi, şəffaflığı ölçən meyarlardan istifadə edəcək ki, bu da praktik olaraq hər bir dövlət müəssisəsinin fəaliyyətinin qiymətləndirilməsində önəmlidir. Digər tərəfdən, İnvestisiya Holdinqi dövlət müəssisələrinə ixrac imkanları da yaradacaq. Holdinqin əsas vəzifələrindən biri ixrac imkanlarının genişlənməsi yönündə təkliflər hazırlamaq və dövlət müəssisələrinin bundan istifadə etməsi üçün zəruri şərait formalaşdırmaqdır. Holdinq yeni ixrac bazarlarının tapılması, rəqabət qabiliyyətli məhsulların istehsalının genişləndirilməsi və ixrac edilməsi baxımından çox vacib rol oynayacaq".

✍ Sevinc

# İqtisadiyyatda yeni mərhələ

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Beynəlxalq Valyuta Fondunun (BVF) virtual missiyası ilə görüşüb.**



Mikayıl Cabbarov,
İqtisadiyyat naziri

Bu barədə hafta.az-a nazirlikdən bildiriblər. Görüşdə Azərbaycan iqtisadiyyatında inkişaf meylləri, 2021-2022-ci illər və ortamüddətli dövr üzrə perspektivlər, COVİD-19 pandemiyası fonunda iqtisadi risklər və Azərbaycan hökumətinin adekvat cavab tədbirləri barədə fikir mübadiləsi aparılıb. İqtisadiyyat naziri pandemiyanın milli iqtisadiyyata və biznes subyektlərinə göstərdiyi təsirlər, Azərbaycan hökumətinin müvafiq dəstəkləyici tədbirləri barədə məlumat verib, postpandemiya dövrü və ortamüddətli dövr üçün ölkənin iqtisadi prioritetlərini qeyd edib. Bildirilib ki, dövlət başçısının Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilib və Azərbaycan hökuməti öz işini bu sənədin müəyyən etdiyi istiqamətlər üzrə quracaqdır.

M.Cabbarov Azərbaycanın yeni bir strateji dövrə daxil olduğunu, işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, Qarabağ bölgəsinin inkişafına nail olunması və onun iqtisadi imkanlarının reallaşdırılmasının təkcə postpandemiya deyil, həm də postkonflikt dövrünün keyfiyyətcə yeni mərhələsi olduğunu bildirib.

Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiya rəhbəri Natalia Tamirisa Fondun mütəxəssisləri tərəfindən fevral ayında keçirilmiş virtual missiyanın yekunları barədə danışıb və bu yekunlara dair məlumatları iqtisadiyyat nazirinə təqdim edib.

Tərəflər missiyanın fəaliyyətinin yekunları, iqtisadiyyatın real sektoru, qeyri-neft sektorunun inkişaf proqnozları, iqtisadi artımı dəstəkləyəcək addımlar və təşəbbüslər, yeni çağırışlara uyğun vergi siyasəti məsələləri, o cümlədən şəffaflığın gücləndirilməsi tədbirləri və s. barədə müzakirələr aparıblar.

# Hande Harmancı peyvənd olundu



Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri

**Hande Harmancı COVİD-19-a qarşı peyvənd olunub. H.Harmancının vaksinasiyası Bakı Sağlamlıq Mərkəzində aparılıb.**

Ona Çinin "Sinovac" şirkətinin istehsal etdiyi vaksin vurulub. Qeyd edək ki, tibb işçilərinə peyvəndin birinci dozası yanvarın 8-dən etibarən vurulub. Bu gün isə ikinci dozanın vurulmasına başlanılıb.

# CQD mühüm texnoloji və diplomatik nailiyyətdir

**"Keçən həftə Prezident İlham Əliyev, Energetika naziri Pərviz Şahbazov, Avropa Birliyi və digər 15 ölkənin nümayəndələri ilə birlikdə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VII iclasında iştirak etməkdən çox məmnunuq".**




Bu barədə ABŞ-ın Azərbaycandakı səfirliyinin məlumatında bildirilir. Məlumatda qeyd olunur ki, ABŞ-ı bu tədbirdə dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin səlahiyyətlərini icra edən Kurt Donnelly və səfir Litzenberger təmsil edib. "Cənub Qaz Dəhlizi mühüm bir texnoloji və diplomatik nailiyyətdir. Bu layihəni vaxtında və 7 milyard dollardan az büdcə ilə başa vurmasına görə dövlət strukturları ilə özəl şirkətlər arasındakı səmərəli əməkdaşlıqdan qürur duyuruq. Hazırda biz Cənub Qaz Dəhlizi layihəsinin mövcud və yeni bazarlara çatdırılacaq yeni qaz mənbələri ilə genişləndirilməyini gözləyirik. Təbrik edirik!" - deyə səfirliyin məlumatında bildirilir.



# "Dağlıq Qarabağda baş verənlər göstərdi ki..."

**Əvvəlcə Liviyada Türkiyə pilotsuz təyyarəsinin Rusiyanın "Pantsir" hava hücumundan müdafiə kompleksini məhv etdiyinə dair video yayıldı. Sonra Dağlıq Qarabağda yenə də Rusiyanın veteran hava hücumundan müdafiə kompleksi " S-300" İsrail istehsalı olan "Harop" kamikadze-dronu ilə vuruldu.**

Dağlıq Qarabağdakı və Liviyadakı ötən münaqişələr göstərdi ki, pilotsuz döyüş platformaları getdikcə daha çox onların məhv edilməsi üçün nəzərdə tutulan yerüstü sistemlərin öhdəsindən gəldiyini, ardınca isə əlçatan vəziyyətə düşmüş qoşunlara hücumun yolunu açdığını göstərir.

Bu cümlələr "Defence News" nəşrinin pilotsuz sistemlərin müasir müharibələrdəki roluna dair məqaləsindən götürülüb. Nəşr yazır ki, dronlarla hava hücumundan müdafiə sistemləri arasında qüvvələr balansı yaxın gələcəkdə qlobal müharibələrə açar olacaq.

"Liviya, Suriya və Dağlıq Qarabağ bizə bunu göstərdi ki, əgər mövcud hərbi qüvvələr öz hava məkanını etibarlı müdafiə edə bilməsə PUA-ların genişmiqyaslı istifadəsi həyatı olduqca təhlükəli edəcək", - Londondan Royal United Service institutunun elmi əməkdaşı Castin Bronk bildirib.

Nəşr xatırladır ki, Türkiyənin "Bayraktar TB2" döyüş pilotsuz təyyarələrinin İsrail istehsalı olan kamikadze-dronlarla birlikdə, effektiv şəkildə tətbiq edilməsi Azərbaycan Ordusuna, azı, 134 erməni tankını məhv etməyə imkan verib. Bu, Azərbaycan Ordusunun vurulan tanklarının sayından 6 dəfə çoxdur.

# ÜGT strategiyasına dair seminar keçirilir

**Fevralın 15-də Ümumdünya Gömrük Təşkilatının (ÜGT) strategiyasının müəyyənləşdirilməsində strateji proqnozlaşdırma metodologiyalarından istifadəyə dair Avropa Regionu üzrə Virtual Seminar öz işinə başlayıb. Seminarda Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, ÜGT Baş katibinin müavini Ricardo Trevino Çapa və təşkilatın Avropa Regionu üzv dövlətlərin gömrük xidmətlərinin nümayəndələri iştirak ediblər.**



ÜGT-nin Avropa Regionu üzrə sədr müavini qismində seminarda açılış nitqi ilə çıxış edən Səfər Mehdiyev bildirib ki, 2020-ci ildə COVID-19 pandemiyasının iqtisadiyyatda və beynəlxalq ticarəttəchizat zəncirinin davamlılığının təmin olunmasında yaratdığı çətinliklərə baxmayaraq, regionun gömrük xidmətləri öz fəaliyyətini uğurla davam etdirib.

Komitə sədri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 44 günlük müharibədə qazandığı qələbənin region dövlətlərinin gələcək inkişafı və regional inteqrasiyanın gücləndirilməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Səfər Mehdiyev ölkəmizdə iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni inkişaf strategiyasının hazırlanması məqsədilə Prezident İlham Əliyevin sərəncamı əsasında "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı strategiya sənədinin hazırlanıb təsdiq olunduğunu, həmin proqramdakı prioritet məsələlərin icrasına gömrük xidmətinin də öz töhfəsini verəcəyini bildirib. DGK sədri Azərbaycan gömrüyünün ticarətin asanlaşdırılması və sürətləndirilməsi, gömrük əməliyyatlarının sadələşdirilməsi məqsədilə gördüyü işlərdən, tətbiq etdiyi layihə və yeniliklərdən də danışıb.

İqtisadiyyatdakı qloballaşma prosesləri ilə yanaşı, böhranların da qlobal xarakter aldığını diqqətə çatdıran Səfər Mehdiyev bildirib ki, ölkələrin iqtisadiyyatlarına dəymiş ziyanın nəticələrini zəiflətmək, mürəkkəb iqtisadi mühitə və dünyada cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq üçün ticarətin inkişafının keyfiyyətcə yeni modelinin formalaşdırılması prioritet vəzifələrdən biridir.

Komitə sədri çıxışında ÜGT-nin yeni strategiyasının təşkilatın gündəlik fəaliyyətini üzv dövlətlərin gömrük sistemlərinin inkişafı ilə bağlı müəyyən etdikləri strateji hədəflərlə uzlaşdırmasının, cari vəziyyətin qiymətləndirilməsi zamanı beynəlxalq ticarətdə qlobal dəyişikliklər, yeni çağırışlar və tendensiyalarının nəzərə alınmasının vacibliyini vurğulayıb. Daha sonra Səfər Mehdiyev strateji planın hazırlanması ilə bağlı üzv dövlətlərdən daxil olan təkliflər, ÜGT-nin fəaliyyətində aparılan təhlillər və müəyyən edilən risklər barədə iştirakçıları məlumatlandırıb, seminarın gedişində maraqlı müzakirələrin keçiriləcəyinə ümidvar olduğunu bildirib.

ÜGT Baş katibinin müavini Rikardo Trevino Çapa iştirakçıları salamlayaraq əməkdaşlığın gücləndirilməsinin vacibliyindən, strateji hədəflərin düzgün müəyyən olunmasının gələcək fəaliyyətin səmərəli şəkildə qurulmasındakı rolundan danışıb. Baş Katibin müavini risklərin aşkar edilərək strateji planda nəzərə alınmasının, üzv dövlətlərin təşkilatın fəaliyyətində yaxından iştirakının vacibliyini vurğulayıb.

Seminar birinci iş günündə 2020-2021-ci illər üzrə Audit Planının qırmızı risk sahələrilə mübarizə aparmaq üsulları barədə interaktiv sessiya ilə davam etdirib. Seminar fevralın 16-da yekunlaşacaq və tədbirin növbəti iş günündə ÜGT-nin Strateji proqnozlaşdırma ilə bağlı yanaşmasına dair interaktiv sessiya keçiriləcək və gündəlikdəki digər məsələlər ətrafında müzakirələr aparılacaq.

# Rusiya ilə Azərbaycan arasında hava əlaqəsi bərpa olunacaq



**Rusiya fevralın 17-dən Azərbaycanla hava əlaqəsini rəsmən bərpa edəcək.**

Müvafiq qərar fevralın 3-də Rusiya Federasiyası hökuməti tərəfindən qəbul edilib. Ölkələr arasında reyslər keçən il pandemiya fonunda dayandırılıb. Ölkələrin aviaşirkətləri həftə ərzində iki dəfə reys təşkil etmək imkanı qazanıblar. Rusiyanın "Aeroflot" şirkəti ötən həftə bildirib ki, fevralın 17-dən Bakıya həftədə iki reys təşkil etməyi planlaşdırır.

Bu halda hazırda turistlər üçün Azərbaycana giriş bağlanıb. Ölkəyə giriş imkanlarına yalnız diplomatlar, qohumları Azərbaycan vətəndaşı olan əcnəbilər, ölkədə iş icazəsinə və ya yaşamaq üçün sənədə malik olan əcnəbilər, həmçinin tələbələr malikdirlər. Vətəndaşların bütün kateqoriyaları ikihəftəlik karantin rejimindən keçməli olacaqlar.

Müsahib



*Qarabağın işğalından uzun zaman keçsə də, qəlbimizdəki yaranın nə qanı dayandı, nə də o yara qaysaq bağladı. 27 sentyabr günü isə düşmən xislətinə uyğun yenə, dinc əhalini hədəfə aldı. Bu dəfə daha son idi. "Qarabağ Azərbaycandır!" dedik, Ali Baş Komandanın "İrəli!" əmrinə hamılıqla qoşulduq. Düşmənlə üz-üzə səngərdə şanlı Azərbaycan Ordusu, arxa cəbhədə isə xalq dayandı. 44 gün davam edən Vətən müharibəsinin əvəzsiz qəhrəmanlarından biri də məhz həkimlərimiz idi.* ***Azərbaycan Tibb Universitetinin Travmatologiya və Ortopediya kafedrasının müdiri, travmatoloq-ortoped Cəfər Nəsirli*** *müharibənin ilk günlərindən şəfalı əlləri ilə yüzlərlə əsgərin yarasına məlhəm oldu. O, hələ 1-ci Qarabağ müharibəsi illərindən bəri bu günü gözləyirdi. Əsgər kimi çıxdığı bu yolu həkim olaraq tamamladı. C.Nəsirli 44 gün boyunca tələbələri ilə birgə cəbhənin müxtəlif istiqamətlərində fəaliyyət göstərdi. Həkim bu müddətdə yüzlərlə yaralı əsgərə yardım göstərib, 30-a yaxın hərbiçinin ətraflarını amputasiyadan xilas etdi. Hafta.az-ın əməkdaşı qəhrəman həkim Cəfər Nəsirli ilə həmsöhbət oldu. Həmin günlərə birgə qayıtdıq, yaşananlara isə soyuqqanlılıqla təkrar nəzər saldıq. Sözügedən müsahibəni sizlərə təqdim edirik:*

# "Günə 50-70 xəstə qəbul etmişik..."

**Cəfər Nəsirli,**
Azərbaycan Tibb Universitetinin Travmatologiya və Ortopediya kafedrasının müdiri, travmatoloq-ortoped

***- Cəfər bəy, müharibədən 3 aydan çox vaxt keçib. Geriyə baxdıqda, o günləri nə cür qiymətləndirərdiniz?***

- Müharibənin üzərindən aylar keçsə də, bizim savaşımız davam etməkdədir. Həmin dövrdə xəsarət almış əsgərlərimiz hələ də müalicə olunurlar. Biz də onların sağlamlığına qovuşması üçün əlimizdən gələni edir və edəcəyik. Hələ də xəstəxanamızda qazilər yatır. Onlara bir çox rekonstruktiv əməliyyatlar etməklə prosesi davam etdiririk.

***- Cəbhəyə nə vaxt yollandınız, bu qərarı verməyə sizi nə vadar etdi və haralarda xidmət göstərdiniz?***

- Müharibə başlayan ilk gün mən cəbhəyə yollandım. Belə bir məqam var ki, travmatoloqun ilk müdaxiləsi çox önəmlidir. Bu həm xəstənin həyatını qurtarır, həm də yaralanmış, qopmuş ətrafları bərpa etmək üçün olduqca vacibdir. Hər bir azərbaycanlı kimi mən də Böyük Vətən Müharibəsində verilən şansı dəyərləndirdim. Müharibənin birinci günü ön cəbhəyə yollandım. Orada ilk olaraq Naftalanda, ardınca Tərtər və Gəncə hospitalında xəstələri qəbul etməyə başladıq. Elə ilk gündən yüzlərlə yaralıya tibbi xidmət göstərib, onların əməliyyatını həyata keçirdik. Bəzən elə olurdu ki, günlərlə əməliyyatxanadan çıxmırdıq. Müharibəboyu yaralı əsgərlərə düzgün müdaxilə edib, ilk növbədə, onları həyatda saxlamaq, zədələnmiş ətraflarının bərpası üçün əlimizdən gələni etdik. Bu bizim üçün Vətən borcudur. Nə xoş mənə ki, belə bir şərəf qismətim oldu.

***- Məlumata görə, 30-a yaxın əsgərin qopmuş ətraflarını xilas etmisiniz. Bəs, ümumilikdə, təxminən, nə qədər yaralıya yardım göstərdiniz?***

- Müharibənin ilk günlərində qəbul etdiyimiz xəstələrin sayını-hesabını bilmirəm. Yüzlərlə yaralıya dayanmadan yardım göstərirdik. Bir əsgərə müdaxilə edirdik, ardınca digəri gəlirdi. Bəlkə də günə 50-70 xəstə qəbul etmişik. Həmin yaralıları ilkin olaraq müayinə edib, ardınca əməliyyatxanaya alırdıq. Burada biz vaxtla yarışırdıq. Zamanında müdaxilə edilərsə, ətrafları bərpa etmək olur.

***- Ön xətdə ən uzunsürən əməliyyatınız neçə saat oldu?***

- Bizim tamamilə qopmuş əl-qol əməliyyatlarımız, ən azı, 7-8 saat çəkir. Bu, çox uzun bir prosesdir. Əməliyyatda mikroskopla işləyirsən, sinir damarlarını bərpa etmək lazımdır.

***- Peşmançılıq yaşadığınız an oldumu? "Bu yaralını da amputasiyadan xilas edə bilərdim" dediyiniz məqam varmı?***

- Əsgərlərlə yaşadığım hər an önəmli idi. İlk gün çatdıra bilmirdim bəzən... Birini bitirib, birbaşa digərinə keçirdim, hər bir yaralıya yardım etmək istəyirdim.

Təbii ki, burada tək deyildim, komanda şəklində çalışırdıq. Mənimlə birgə ümumi cərrah, damar cərrahı, plastik cərrah da var idi.

***- Həmin vaxt xəstəniz olan qazilərlə indi əlaqəniz varmı? Səhhətləri nə yerdədir?***

- Əlbəttə, hamısı ilə əlaqəmiz var. Orada ilk əməliyyat etdiyim xəstələr bu gün universitetdə mənim şöbəmdə müalicələrini davam etdirirlər. Bəzilərinə təkrar əməliyyatlar gərəkdir, digərlərinə isə bərpaedici-rekonstruktiv əməliyyatlar. Bu əməliyyatları davamlı həyata keçiririk. Müharibə vaxtı yaşanan maraqlı hadisəni də diqqətinizə çatdırmaq istərdim. Bir əsgərin ayağını əməliyyatla xilas etmişdim. Özü də Gəncə bölgəsindən idi. Daha sonra o mənə sovqat gətirdi. Sovqatın içində həyətdə becərilən göyərtilər, təndir çörəyi, evdə hazırlanan pendir var idi. Bu pay mənim üçün o qədər dəyərli idi ki, bəlkə əvəzində kilolarla qızıl gətirsəydilər, o qədər qiymətli olmazdı. Demək istədiyim odur ki, istər əsgər olsun, istər həkim, istərsə də sadə vətəndaş, Vətən müharibəsi bizləri dərin bağlarla birləşdirdi. Hərdən hospitalın önünə çıxırdım və inanın ki, ayaqüstə dayana bilməyən insan yaxınlaşırdı ki, "Mən qan vermək istəyirəm". Bu, çox qürurvericidir. Heç zaman unudulmayacaq hadisələrdir.

***- Sizin üçün müharibənin və 44 günün simvoluna çevrilən hadisə, yəqin ki, çox olub. "Heç vaxt unuda bilmərəm", - dediyiniz bir an olubmu?***

- 18-19 yaşlı, çox məsum, yaralı bir gənc var idi. Onun qolu tamamilə qopmuşdu. Şokda idi, qolunun bərpa oluna biləcəyinə ümidini itirmişdi. Biz onu əməliyyata aldıq. Təxminən, 7 saat çəkən cərrahi prosedurdan sonra, yaralının qolu tam bərpa edildi. Əsgər oyananda, ilk sözümüz o oldu ki, barmaqlarını oynat. Əsgər barmaqlarını tərpədən zaman üzündəki sevinci sözlə ifadə etmək mümkün deyildi. O anları, ancaq yaşamaq lazımdır.

***- Sizinlə birgə cəbhə xəttinə tələbələrinizdən də gedən olmuşdu?***

- Bəli, tələbələrim ön xətdə yanımda idilər. Çox sarsıdıcı bir məqamı da qeyd edim. Onlardan 2-si müharibədə şəhid oldu...

***- Ekstremal vəziyyətlərdə dayanmadan yaralılara müdaxilə etmək, bir sözlə desək, elə müharibə özü siz həkimlər üçün yeni bir təcrübə oldu. Həmin təcrübələri tədris edəcəksiniz?***

- Bəli, təbii ki. Bu, tamamilə fərqli bir şeydir, planlı gələn xəstə isə ayrı. Həmin xəstəyə hansı müalicə metodunu tətbiq etməyi əvvəlcədən düşünüb, qərar verirsən. Orada isə yaralının həyatını xilas etmək üçün qərar qəbul etməyə saniyələr lazımdır. Düzgün və zamanında qərar vermək çox önəmlidir. Bu bizim həkimlərimiz üçün də böyük təcrübə idi. Müharibədə qazandığımız təcrübələri hər zaman tələbələrimizə aşılayacağıq.

***- Cəbhədən nə zaman qayıtdınız?***

- Müharibə bitdikdən sonra. Hazırda işlədiyim universitetdə qazilərimizin müalicəsi ilə məşğul oluruq.

***Banu***

> *"Bu pay mənim üçün o qədər dəyərli idi ki, bəlkə əvəzində kilolarla qızıl gətirsəydilər, o qədər qiymətli olmazdı*

> *"Müharibədə qazandığımız təcrübələri hər zaman tələbələrimizə aşılayacağıq*

> *"Əsgər barmaqlarını tərpədən zaman üzündəki sevinci sözlə ifadə etmək mümkün deyildi*

# Qarabağ, ölkə iqtisadiyyatının "mühərrik"inə çevriləcək

**Yaxın on il ərzində işğaldan azad olunmuş ərazilərə 1,5-2 milyon əhali köçürülə bilər. Bu, mərhələli şəkildə həyata keçiriləcək. İlkin olaraq, görülən təhlükəsizlik tədbirlərindən, yəni ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsindən sonra proses ərazinin bəlli baş planı əsasında davam etdiriləcək.**



■ Bunu iqtisadçı ekspert Natiq Cəfərli deyir. Məskunlaşmanın həm iqtisadi, həm sosial, həm də siyasi önəmi var. İşğaldan azad olunmuş ərazilərdə əhalinin sayının getdikcə artması, oranın cəlbedici hala gəlməsi, iqtisadi fürsətlərin genişlənməsi gələcəkdə Ermənistan tərəfindən atıla biləcək hər hansı revanşist addımların da qarşısını alacaq.

İşğaldan azad edilmiş ərazilərin bərpa və yenidənqurulmasına, o cümlədən iqtisadi inkişafın formalaşdırılmasına dost ölkələrin şirkətləri də cəlb olunacaq. Türkiyə və İtaliyanı təmsil edən şirkətlərlə əməkdaşlıq reallaşıb. Türkiyə şirkətləri nəqliyyat sferası daxil olmaqla, bir sıra infrastruktur layihələr həyata keçirəcəklər. İtaliya şirkətləri isə işğaldan azad olunmuş ərazilərin enerji təminatına xüsusi töhfə verəcək. Bundan başqa, iqtisadiyyatın fərqli sektorları, emaledici sektor və turizm də İtaliya şirkətləri üçün cəlbedicidir.

Natiq Cəfərli daha çox xarici şirkətin cəlb olunması üçün Azərbaycanın investisiya mühitinin daha da yaxşılaşdırılmasına ehtiyac olduğunu deyir. İqtisadçı deyir ki, işğaldan azad edilmiş ərazilərə xarici investisiyanın cəlb edilməsi Azərbaycana əlavə siyasi divident də gətirəcək. Bu, həm də Qarabağı ölkə iqtisadiyyatının "mühərrik"inə çevirəcək.

# Nərgiz Cəlilova televiziyadakı maaş azlığından gileyləndi



**"Televiziyada həmişə maaş çox aşağıdır". Aparıcılarımız var ki, efirdən əlavə tədbirləri idarə edirlər. El şənlikləri aparıb, əlavə gəlir qazanırlar.** Bəziləri isə quru maaşa işləyir. Bununla da ailə saxlayırlar". Bu sözləri Əməkdar artist Nərgiz Cəlilova "Səhər mərkəzi" proqramında deyib. Aparıcı telekanallarda maaşların az olmasından bəhs edib:

"Bugünün tələbləri yüksəkdir. İnsan gəzmək, geyinmək, ləziz yeməklər yemək istəyir. Bunun kafe, restoranı da var. Ona görə də gənclərimiz özəl şirkətlərə üz tuturlar, orada maaş yüksəkdir. Artıq bu məsələ həll olunmaq üzrədir". Aparıcı Tural Əsədov N.Cəlilovanın illərəvvəl ona dediyi "Haqqımda demişdi ki, ondan heç vaxt aparıcı olmayacaq" sözlərini xatırladıb. Aparıcı "Arxanızca yox, üzünüzə demişdim. İllər ötəndən sonra peşəkar aparıcı oldunuz. Tədbirlərin birində dedim ki, Tural, səninlə fəxr edirəm, illərəvvəl dediyim sözləri geri götürürəm", - cavabını verib.

# "Njdenin faşist ideologiyası bizim üçün təhlükəlidir"

**Ermənistan mədəniyyət nazirinin müavini Janna Andreasyan erməni televiziyasında nasist kollaborasionisti Qaregin Njdenin ifrat millətçi "Tsağakronizm" ideologiyasının təhlükəsi barədə əhəmiyyətli açıqlamalar verib. Andreasyan açıqlamasında Nijdenin "Tsağakronizm" ideologiyasının faşist bir ideologiya olduğunu və müasir sivil cəmiyyətlər üçün böyük təhlükə daşıdığını bildirib.**



"Njde ideologiyası, əslində, faşist bir ideologiyadır. XXI əsrin cəmiyyəti olaraq bizim üçün çox təhlükəlidir, çünki bu ideologiya dünyaya qarşı aqressiya, özünü dünyadan təcrid etmə və digər cəmiyyətlər üzərində üstünlük nümayiş etdirmək prinsipləri əsasında qurulub. Əgər bu təlimdən bütün gözəl sözləri ayırsa, o zaman geriyə çox təhlükəli bünövrə qalacaq", - deyə Andrenesyan qeyd edib.

O, erməni cəmiyyətinin sözügedən ideologiyaya görə müasir sivil cəmiyyətlərdən geri qaldığını və alternativ konsepsiyalara ehtiyac olduğunu qeyd edib.

"Sən bu cür mövcud ola bilməzsən, yəni hamıya yuxarıdan bax və eyni zamanda başqalarının sənə qarşı yaxşı münasibət göstərməsini gözlə. Belə olmur. Ətrafdakı hər kəsin axmaq olduğuna inanıb hamını nəzarətimizdə saxlamağa çalışa bilmərik. Belə yaşamaq mümkün deyil. Bizə, erməni xalqına aid açıqlaya biləcəyimiz digər konsepsiyalar lazımdır. Hazırda erməni cəmiyyətində yalnız millətçilərin monoloqu davam edir. Cəmiyyətdəki hər hansı bir monoloqun olması çox təhlükəlidir. Müasir dünya sürətə və müxtəlifliyə əsaslanır və əgər biz bu tendensiyalara uyğun gəlmiriksə, sosial inkişaf meyllərinə uyğun gəlmiriksə, o zaman bu vəziyyətdə dünya ictimaiyyətinin həyatından kənarda qaldığımızı anlamalıyıq", - nazir müavini qeyd edib.



**■ TƏBİB Azərbaycanda istifadə edilən koronavirus vaksininin effektivliyinin müddətini açıqlayıb.**

TƏBİB-in "Facebook" səhifəsində verilən açıqlamaya görə, Türkiyədə aparılan tədqiqatların nəticələrinə əsasən, vaksinin effektivliyi 92 faizdir: "Vaksinin insanda yaratdığı immunitetin minimum müddəti 1 ildir.

Maksimum müddət isə hələ təsdiqlənməyib". Qeyd edək ki, Türkiyə kimi Azərbaycanda da vətəndaşlara Çin istehsalı olan "Coronovac" peyvəndi vurulur.



**■ Daxili İşlər Orqanlarının Maddi-texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun direktoru, ehtiyatda olan polis polkovniki Sadiq Gözəlov tutduğu vəzifədən azad edilib. Bu barədə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb.**

Əmrə əsasən S.Gözəlov təqaüdə göndərilib. Qeyd edək ki, S.Gözəlov uzun müddət Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışıb.

O, 2017-ci ildə daxili işlər orqanlarında xidmətdə olmanın son yaş həddi ilə əlaqədar təqaüdə göndərilib.



**■ Milli Məclisin sədrinin köməkçisi vəzifəsindən azad edilib. Sahibə Qafarovanın müvafiq əmri ilə Milli Məclis sədrinin köməkçisi Fərid Hacıyev vəzifəsindən azad olunub.**

Bununla da Milli Məclis sədrinin köməkçilərinin sayı 4-dən 3-ə enib. F.Haciyev Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri təyin edilib. S.Qafarovanın daha bir əmri ilə isə Mehdi Dünyamalı oğlu Qurbanov yeni yaradılan Sosial qanunvericilik şöbəsinə müdir müavini təyin edilib.



**■ Bu iki gün ərzində terrorla "mübarizə aparan" ölkələrin PKK-nın qətliamına səssiz qaldıqlarını, ya da müxtəlif bəhanələr gətirdiklərini müşahidə edirik.**

Bu barədə Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu 13 Türkiyə vətəndaşının PKK terror təşkilatı tərəfindən qətlə yetirilməsinə münasibət bildirərkən deyib. "Əlbəttə, şəhidlərimizin qanı yerdə qalmayacaq", - deyə nazir vurğulayıb. Türkiyənin milli müdafiə naziri Hulusi Akar Pəncə Qartal-2" hərəkatında terrorçuların mağarasından 13 günahsız Türkiyə vətəndaşının meyitinin aşkarlandığını bildirib.



**■ XXI əsrin ən yaxşı məşqçilərinin siyahısı açıqlanıb. Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (İFFHS) cədvəlinə Joze Mourinyo başçılıq edir.**

Portuqaliyalı mütəxəssis 2001-2020-ci illər üçün dünyanın ən yaxşı baş məşqçisidir. Onun 226 xalı var.

İkinci pillədə almaniyalı Yoahim Löv qərarlaşıb. Mütəxəssis bu müddətdə 213 xal toplayıb. 3-cü pilləni şotlandiyalı Aleks Ferqyuson və Pep Qvardiola bölüşür. Hər iki mütəxəssisin 183 xalı var. Qeyd edək ki, siyahıda planetin 15 məşqçisi yer alıb.



**■ Çin Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən Yeni Azərbaycan Partiyasına (YAP) 10 min doza vaksin verilməsi barədə qərar qəbul edilib.**

YAP-dan hafta.az-a verilən məlumata görə, bu haqda Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin xarici əlaqələr idarəsinin şöbə müdiri Can Cenkun bildirib. ÇKP MK-nın nümayəndəsi qeyd etmişdir ki, vaksinlər Yeni Azərbaycan Partiyasına yardım məqsədilə, təmənnasız veriləcəkdir və ehtiyac olduğu təqdirdə dozanın miqdarı artırıla bilər.



**■ "Şəhidlərimizin qanı yerdə qalmayıb, son hərəkat zamanı 53 terrorçu zərərsizləşdirilib".**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. "Ordumuzun zaman və məkan sərhədi tanımadan ölkəmizin ehtiyac duyduğu, millətimizin təhlükəsizliyi üçün vacib olan hər hərəkatı öz imkanları ilə reallaşdıracaq səviyyəyə çatması ilə qürur duyuruq. Hər ötən il daha da inkişaf edən təchizatı, texnologiyası və insan gücü ilə Türk Ordusunun qarşısında dura biləcək terror qruplaşması yoxdur. Son hərəkatda bu həqiqəti gördük", - deyə Ərdoğan vurğulayıb.

QƏHRƏMAN DÖYÜŞÇÜLƏRİMİZİ TANIYAQ





***İnsan dünyaya gəlir, yaşayır və köçüb-gedir. Yaradılışın mövcud qanunauyğunluğu bu cürdür. Elə insanlar da var ki, bu həyatda etdikləri ilə daim yaddaşlarda qalır. 44 günlük Vətən Müharibəsi bizə tanımadığımız yüzlərlə qəhrəman sayəsində bütövlüyümüzü qazandırdı. Zəfər təkcə torpaqlarımızın azad edilməsi demək deyil. O həm də Xeyirin şər, Haqqın nahaq üzərində qələbəsidir. Hafta.az qələbə imzasını Vətən torpaqlarına qanları ilə çəkən şəhidlərimizə həsr etdiyi növbəti yazını sizlərə təqdim edir. Budəfəki qəhrəmanımız Vətən müharibəsinin 19 yaşlı iştirakçısı Məmmədov Rza Əsgər oğludur.***

# Qazi atanın şəhid övladı

Qazi atanın şəhid övladı Rza Məmmədov 23 noyabr 2001-ci ildə Şamaxı rayonunun Göylər kəndində anadan olub. Rza ailənin böyük övladı, 2 bacının 1 qardaşı idi. 2007-2018-ci illərdə Göylər kənd 2 saylı tam orta məktəbində təhsil alıb. Rza həm də gözəl səsə sahib idi. Elə buna görə də paralel olaraq, Şamaxı İncəsənət Təhsil Mərkəzində xanəndəlik təhsili alırdı.

Təhsilini bitirib, diplomunu almağa cəmi 6 ay qalmış çağırış gəlir, 7 yanvar 2020-ci ildə isə Rza hərbi xidmətə yollanır. Xidməti Beyləqan rayonunda kəşfiyyat qrupunda davam etdirir. Vətən Müharibəsinin ilk günü 9 ayın əsgəri olan Rza Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidliyə ucalır. Hafta.az qəhrəmanımızın ailəsi və yaxınları ilə həmsöhbət oldu. Onlar şəhidlə bağlı xatirələrini bizimlə bölüşdülər.



■ **Şəhid atası Əsgər Məmmədov deyir ki, özü hələ 1-ci Qarabağ müharibəsində, Ağdərə, Laçın, Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak edib. Elə həmin vaxt yaralanaraq qazi olub:**

"Oğlum hələ uşaq olanda ağrılarımın səbəbini öyrənib, tez-tez məndən harada döyüşdüyüm haqqında soruşurdı. Hər dəfə də səbirlə cavab verirdim. Vətənpərvər ruhda böyümüşdü. Bir başqa idi onun yurd sevgisi... Neçə-neçə arzuları, xəyalları var idi gələcəklə bağlı. Hamısı da ürəyində qaldı... (ağlayır)".

■ **Ana Lamiyə Məmmədova də övladı haqqında danışarkən səsi titrəyir, göz yaşları nitqini yarımçıq kəsirdi.** O deyir ki, oğlum hər zaman bizləri düşünürdü. Şirindilli, şirinsəsli idi:

"Rza ilk gözağrım, birinci övladım idi. Haqqında nə desəm, nə danışsam azdır. Çox qayğıkeş, ailəcanlı uşaq olub. Axırıncı dəfə onu 20 fevral 2020-ci ildə gördük. Pandemiya səbəbindən yanına gedə bilmirdik. Nə vaxt danışsaq, hər şeyin yaxşı olduğunu söyləyirdi. İstəmirdi ki, biz ona görə nigaran qalaq. Sonuncu zəngi isə sentyabrın 20-də oldu. Həmişəki kimi yenə bizdən hal-əhval tutdu. Hər şeyin qaydasında olduğunu bildirdi. Dostlarının dediyinə görə, şəhid olmamışdan bir gün öncə onlara, "Ana, mən şəhid oldum" mahnısını oxuyub. Aylaröncə ortancıl bacısına məktub yazıb. Orada bizi və kiçik bacısını ona əmanət edib. Elə bil şəhid olacağını bilirmiş...".

■ **Daha sonra şəhidimizin bacısı Sima Məmmədova qardaşının ona yazdığı məktub haqqında danışdı. Bacı söylədi ki, Rza məktubunda atamızdan, anamızdan, balaca bacımızdan muğayat olmağı tapşırıb mənə, halallıq istəyib...**

"Şəhid bacısı olmaq - onun mənə qoyduğu bu ad qürurvericidir. Yoxluğu isə çox ağırdır (ağlayır)".

Şəhidin döyüş yoldaşı Rəşad Qəhrəmanov isə bildirdi ki, Rza xidmətboyu tez-tez vətənpərvər ruhda mahnılar oxuyurdu:

"Axırıncı dəfə bizlərə şəhid olacağını, dövlətin ailəsinə ayıracağı pulla isə bacısının təhsil alacağını söylədi". Qeyd edək ki, 19 yaşlı şəhid Rza Məmmədovun döyüş meydanında göstərdiyi igidlik ölkə Prezidenti tərəfindən də yüksək qiymətləndirilib. O, ölümündən sonra "Vətən uğrunda", "Döyüşlərdə şücaətinə görə" medalları ilə təltif olunub. Ruhun şad olsun, Vətən fədaisi, qəhrəman əsgər Rza Məmmədov!

✍ ***Banu***

# Sayğaclarla bağlı qanunlara dəyişiklik edilir

## Parlament



**Elektrik, su və qaz sayğaclarının göstəricilərinin oxunması zamanı aşkar edilmiş qanunsuz istifadə hallarının rəsmiləşdirilməsində yaranan problemlərin aradan qaldırılması məqsədilə qanunvericiliyə dəyişiklik təklif edilir. Bununla bağlı layihə Milli Məclisə daxil olub.**

Layihəyə əsasən, "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Su təchizatı və tullantı sualları haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunlara dəyişiklik edilməsi təklif olunur.

Təklif edilən dəyişikliklər aşağıdakıları nəzərdə tutur:

1) enerji, su və qaz təchizat müəssisələri tərəfindən sahibkarlıq subyektlərinin elektrik, su və qaz sayğaclarının göstəricilərinin oxunması zamanı müəyyən edilən sayğaclara müdaxilə, habelə sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma hallarının araşdırılması ilə bağlı yoxlamaların keçirilməsinə hüquqi əsasın yaradılması (sahibkarlıq sahəsində yoxlamaların dayandırıldığı dövrdə). Bu məqsədlə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanuna müvafiq dəyişiklik (yoxlamaların dayandırılmasından istisna) təklif olunur;

2) sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyi yerlərə gəlməklə və müqavilə şərtlərinin yerinə yetirilməsini tələb etməklə bağlı yoxlamaların (sayğacların göstəricilərinin oxunması) keçirilməsinə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinin şamil edilməsi (3.2-ci, 13-cü, 20.1-ci, 20.2-ci maddələr istisna olmaqla).

3) sahibkarlıq subyektlərinin sayğaclarının göstəricilərinin oxunması zamanı əgər sayğaca müdaxilə, habelə sayğacdan kənar şəbəkəyə qanunsuz qoşulma halları müəyyən edilərsə müvafiq yoxlama tədbirlərinin də "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunun tələblərinə əsasən həyata keçirilməsi, o cümlədən yoxlamaların vahid məlumat reyestrində qeydə alınması.

Yoxlamalara adıçəkilən qanunun tətbiqi sahibkarların maraqlarının daha effektiv qorunmasına, yoxlayıcı ilə sahibkarlıq subyekti arasında yarana biləcək neqativ halların aradan qaldırılmasına xidmət edəcək. Qeyd edək ki, məsələ Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin 2021-ci il 16 fevral tarixli onlayn iclasının gündəliyinə daxil edilib.



■ **Bakı Apellyasiya Məhkəməsində sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı qərardan verilən şikayətə baxılıb. Keçirilən prosesdə qərar elan olunub.**

Qərara əsasən, S. Müslümovun şikayəti təmin edilməyib, birinci instansiya məhkəməsinin qərarı qüvvədə saxlanılıb. Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılan S.Müslümov Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilir.



■ **Bu ilin aprel ayından etibarən "Azərmaş" ASC "Khazar" brendi altında ilk pikap tipli avtomobilin istehsalına başlayacaq.**

Bunu APA-ya ASC-nin İdarə Heyətinin sədri Emin Axundov deyib. Onun sözlərinə görə, bu tipli avtomobillərin iki modelinin yığılması nəzərdə tutulur ki, hazırda modellərdən biri artıq təsdiqlənib. Qeyd edək ki, müəssisənin istehsal prosesinə dair ötən il bir çox planlar olsa da, pandemiya səbəbindən onlar cari ilə təxirə salındı.

Belə ki, bu il müəssisə "Khazar" brendi altında premium sinfinə aid modellərin istehsal həcminin artırmaq niyyətindədir.



■ **Son günlər ölkəmizdə koronavirusa yoluxmaların azalması heç kimdə arxayınlıq yaratmamalıdır. Bunu Nazirlər Kabineti (NK) Aparatının sektor müdiri Qurban Sadıqov NK əməkdaşlarının vaksinasiyası zamanı jurnalistlərə deyib.**

Q.Sadıqov bildirib ki, Nazirlər Kabineti əməkdaşlarının vaksinasiyası üçün burada hər şey yüksək səviyyədə təşkil olunub: "Həkimlərə təşəkkürümüzü bildiririk və vətəndaşlara da tövsiyə edirik ki, Səhiyyə Nazirliyinin və TƏBİB-in verdiyi tövsiyələrə əsasən peyvənd işində fəallıq göstərsinlər. Nazirər Kabineti yanında Operativ Qərargah tərəfindən bütün tədbirlər həyata keçirilir ki, pandemiyanın ölkəmizdə yayılmasının qarşısı alınsın və son günlər çox sevindirici haldır ki, yoluxanların sayı minimal həddə çatıb.




■ **Çində saxta koronavirus peyvəndi istehsal edən və satan 78 nəfər həbs olunub. Ötən həftənin çərşənbə günü saxlanılanlar arasında peyvəndin qiymətini artırmağa çalışanlar da var.**

Agentliyin xəbərinə görə, ölkə daxilində aparılan əməliyyatlar zamanı 21 ayrı vaksin fırıldaqçılığı ilə bağlı faktlar ortaya çıxıb. Məlum olub ki, qruplardan biri 58 000 vaksin şüşəsində vaksin əvəzinə duzlu və ya mineral suyu sataraq 18 milyon Yuan (təxminən 2.8 milyon dollar) gəlir əldə edib. Digər saxlanılanlar isə saxta peyvəndləri xəstəxanalara apararaq, yüksək qiymətə satıb, bir qismini isə qaçaq şəklində Afrikaya göndəriblər.

**Vüqar Tofiqli,**
"Bələdiyyələrin fəaliyyətinin təbliği"
İctimai Birliyinin sədri



**Bu gün Bakı şəhərində avtodayanacaq sisteminin qurulması istiqamətində fiziki və hüquqi şəxslər, habelə dövlətin müvafiq qurumları ciddi addımlar atır. Bir çox ərazilərdə yeraltı və yerüstü avtomobil dayanacaqları inşa edilmiş və vətəndaşların istifadəsinə verilmşdir. Yazının əsas məqsədi bu istiqamətdən daxil olan ödənişin səviyyəsi və ümumiyyətlə, bu sahənin idarə edilməsi ilə bağlı real vəziyyətə aydınlıq gətirməkdir.**

# Bakının avtodayanacaqları

Müşahidələrdən belə qənaətə gələ bilərik ki, Bakı şəhərində avtomobil dayanacaqları gəlirli sahə olduğundan, bu sahəyə nəzarət uğrunda yerli özünüidarəetmə orqanları formalaşdırıldığı ildən etibarən ciddi mübarizə gedir. Məhz bu mübarizənin nəticəsidir ki, son illərdə dəfələrlə bu sahəyə nəzarət "sahibi" konkret olaraq dəyişilib. Beləliklə, gəlin, son iyirmi ildə avtodayanacaqlarla bağlı paytaxtda yaranmış vəziyyətə qısa nəzər salaq.

Əvvəlcə qeyd edək ki, "Bələdiyyənin maliyyəsinin əsasları haqqında"(1999), (maddə 7.1.6) həm də "Yerli vergilər və ödənişlər haqqında" (2001) (maddə 9.1.5.) qanunlara əsasən bu istiqamətdən daxil olan ödənişin məhz yerli orqanlara aid edilməsi birmənalı surətdə göstərilir. Adıçəkilən qanunlardan irəli gələrək həmin dövrdə paytaxtın icra başçısı Bakı şəhərində olan dayanacaqların bələdiyyələrə verilməsi barədə sərəncam imzalayaraq (01.09.2000-ci il tarixli № 849 saylı), dayanacaqları müvəqqəti olaraq bələdiyyələrin istifadəsinə verib və bu addımının "icra hakimiyyəti orqanları tərəfindən bələdiyyələrin maliyyə problemlərinin həll olunmasına kömək məqsədilə" həyata keçirildiyini sərəncamda qeyd edib. Təxminən, bir il sonra paytaxtın o dövrdə yeni təyin edilən icra hakimiyyətinin başçısı Hacıbala Abutalıbov tərəfindən imzalanmış sərəncamla "Bakı şəhərinin ərazisində yerləşən gündüz avtomobil dayanacaqlarının bələdiyyələrə verilməsi barədə BŞİH başçısının 01.09.-2000-ci il tarixli № 849 saylı sərəncamının ləğv edilməsi və Bakı şəhərində minik avtomobilləri dayanacaqlarının işinin təşkilinin tənzimlənməsi haqqında" № 655 saylı 15.10.2001 bələdiyyələr həmin maliyyə mənbəyindən məhrum oldular.

Sərəncamda maraqlı bir məqamı diqqətə çatdıraq. Belə ki, sərəncamda göstərilirdi ki, "Son vaxtlar Bakı şəhərinin küçə və meydanlarında, hökumət və dövlət idarələrinin, iri ticarət mərkəzlərinin, əhalinin istirahət etdiyi park və bağların ətrafında ayrı-ayrı şəxslər tərəfindən kortəbii şəkildə minik avtomobilləri dayanacaqlarının təşkilinin geniş yayılması onu göstərir ki, müvafiq bələdiyyələr Bakı şəhərinin ərazisində minik avtomobilləri dayanacağı işinin təşkilini lazımi səviyyədə qurmayıblar ki, bu da dayanacaqlarda əhalinin və nəqliyyat vasitələrinin hərəkətinə maneçilik törətməklə yol hərəkəti qaydalarının pozulmasına gətirib çıxarıb". Beləliklə, o illərdə şəhərdəki hərəkət qarışıqlığına görə, bütün məsuliyyət bələdiyyələrin üzərinə atılıb və səbəbkar kimi yerli orqanlar ciddi ittiham edilirdilər.

Ümumiyyətlə, Hacıbala Abutalıbovun Bakı ŞİH-ə rəhbərliyi dövründə açıq etiraf etməliyik ki, bələdiyyələrə ögey münasibət bəslənilmiş, bir sıra hallarda bütün neqativ halların baş verməsinin əsas səbəbkarı kimi bələdiyyələr günahlandırılmışdır.

Cənab Prezident İlham Əliyevin söylədiyi kimi, bütün hallarda bələdiyyələr "icra hakimiyyətinin icazəsi olmadan belə hərəkət edə bilməz"lər fikri eks-merin bu fikirlərini alt-üst edir. Bu sahəyə nəzarət keçmiş Nəqliyyat Nazirliyinə verilsə də, sonradan təkrar olaraq Bakı ŞİH-ə həvalə edildi. Ən müasir standartlara cavab verən biləcək bir sahə yaradıldığnı da qeyd etməliyik. Bütün paytaxt küçə və prospektlərində müasir parkomatlar quraşdırıldı, fəaliyyət dairəsi müəyyən edildi. Üstəlik, Ticarət və Xidmət Departamentinin nəzdində təsərrüfat hesablı bir müəssisə də yaradıldı. İlk Avropa Oyunları ərəfəsində sistem işə salındı və həqiqətən də işlədi. Qeyd edək ki, az müddətdə. Bu uğurdan başı gicəllənən müəssisə rəhbərliyi tərəfindən DYP ilə razılaşdırılmamış və lazımsız yerlərdə saysız-hesabsız parkomatlar quraşdırıldı ki,

## Gəlir hara gedir?



bu da öz növbəsində, şəhərdə həm hərəkət sıxlığı yaratdı, həm əhalinin haqlı narazılığına səbəb oldu. Nəticədə müəssisə rəhbəri işdən azad edildi. Təəssüflə qeyd edim ki, xeyli müddət məhz büdcə vəsaitləri hesabına alınan parkomatlar sonradan kimlər tərəfindənsə nəzarətsiz saxlanıldı və az müddət sonra söküldü. İki il əvvəl ölkə başçısının imzaladığı müvafiq sənədə görə bu sahəyə nəzarət yenidən Bakı Şəhər İcra Hakimiyyətidən alınaraq, bu dəfə Bakı Nəqliyyat Agentliyinə verildi. Hər kəs bu istiqamətdə irəliləyişin olacağını düşünsə də, sahənin inkişafı və mövcud problemlərin aradan qaldırılması üçün elə də ciddi layihələrin icra edilmədi, yəni sahəyə nəzarət tam həyata keçirilməmiş qaldı.

Milyonlarla manat vəsait nə dövlət büdcəsinə, nə də yerli büdcəyə daxil oldu. Əvəzində hansısa işbaşların cibinə yönəldi. Bu sahədən kifayət qədər maliyyə vəsaiti yığılır. Təəccüblü gələn bir məqam da ondadır ki, indiyədək müvafiq qurumlar tərəfindən verilən hesabatlarda avtodayanacaqlarla bağlı rəqəmlər heç vaxt səsləndirilməyib. Şəffaflıq, demək olar ki, təmin edilməyib.

İndi sə mövcud vəziyyətə toxunaq. Bütün küçə və prospektlərdə gündüz avtomobil dayanacağı faktiki olaraq fəaliyyətdədir və pul yığılır. Bakı Nəqliyyat Agentliyi hər bir dayanacaqda lövhə vuraraq, tariflərin müəyyən ediləcəyi günə qədər dayanacaqların pulsuz olduğunu qeyd edib. Bu gün dayanacaqlardan, habelə gecə məhəllədaxili dayancaqlardan, o cümlədən şəhərin mərkəzində istifadəyə verilən yeraltı və yerüstü dayanacaqlardan kifayət qədər maliyyə vəsaiti toplanılır və yeni, daha müasir dayanacaqlar da tikilməkdədir. Bunlardan yerli bələdiyyə büdcəsinə ya vəsait daxil olmur, ya da çox cüzi vəsait köçürülür. Bundan əlavə, mərkəzdə yerləşən iri avtodayanacaqlar isə ümumiyyətlə, əldə etdiyi maliyyə vəsaitindən yerli büdcəyə köçürülməli olan ödənişi etmək niyyətində deyil. Səbəb kimi, həmin ərazilərin guya bələdiyyənin mülkiyyətində olmaması göstərilir. Qanunda mülkiyyətində deyil, məhz ərazisində olmasının göstərilməsi də bəzən hansısa səbəbdən məhkəmə prosesində qəbul edilmir. Nəticədə bələdiyyələrimiz məğlub durumda qalmalı olur. Passivlik göstərən bələdiyyə sədrləri ilə yanaşı, təşəbbüskar olub məhkəmə çəkişməsinədək mübarizə aparanlar da az deyil.

Son iyirmi ildə bələdiyyə büdcəsinə avtodayanacaqlardan daxil olan ödənişlərin həcminə diqqət yetirək. 2002-ci ildə 93 300 manat, 2003-cü ildə 70 480 manat, 2004-cü ildə 119 840, 2005-ci ildə 40 800, 2006-cı ildə 315 400, 2007-ci ildə 113 800 manat, 2008-ci ildə 51 400 manat, 2009-cu ildə 44 700 manat, 2010-cu ildə 48 800 və nəhayət, 2020-ci ildə 238 600 manat vəsait əldə edə biliblər. Göründüyü kimi, bu sahənin əldən-ələ keçməsi nəticəsində bələdiyyələrə daxil olan maliyyənin həcmi də dəyişir.Beləliklə, avtodayanacaqlardan daxil olan ödənişin büdcədaxilolmalarındakı həcmi 3 faizə çatmır. Halbuki təxmini hesablamalar göstərir ki, ümumilikdə ay ərzində ortalama rəqəmlə paytaxt dayancaqlarından ay ərzində bir milyon manata yaxın maliyyə vəsaitinin toplanıldığı deyilir. Onu da əlavə edək ki, bu rərəmdən dövlət büdcəsinə aid olan köçürmələrdə də qeyri-dəqiqliyin olması şübhəsizdir. Nəzarət mexanizmi qurulmuş olsa, bu, bələdiyyə büdcəsinə ödənilən vəsaitin ümumilikdə büdcə vəsaitinin 10 faizindən daha çox ola bilər. Bir şərtlə ki, dayanacaq sahibi olanlar qanuna riayət edib üzərlərinə düşən məsuliyyət yükünü başa düşmüş olsunlar. Sözsüz ki, bələdiyyələrlə bağlı bütün problemlərin həlli istiqamətində Azərbaycan şəhər, qəsəbə və kənd bələdiyyələrinin Milli Assosiasiyası öz sözünü deməyə borcludur. Hər birimiz qəbul etməliyik ki, bütün hallarda bələdiyyələrə əlavə vəsaitin daxil olması sonda seçicinin probleminin həlli deməkdir. Odur ki, Bakı Şəhər İcra Hakimiyyətinin, Bakı Nəqliyyat Agentliyinin rəsmilərini bələdiyyələrin fəaliyyətini diqqətdə saxlamağa, onlarla əməkdaşlıq etməyə və paytaxtımızın abadlığı istiqamətində bələdiyyələrə dayaq durmaqla bağlı ürəkli addım atmağa səsləyirəm. Dayanacaq sahiblərindən isə xahiş edirəm ki, gedib səs verdikləri bələdiyyələrə problem yaratmaqdansa, bu qurumların inkişafına dəstək versinlər.

***P.S. Bu mövzu ilə əlaqəli tərəflərin fikir və mülahizələrini dinləməyə və saytda yerləşdirməyə hazırıq.***

## Səfər



# “Hər üç rus turistdən ikisi Türkiyəyə gəlmək arzusundadır...”

***Tam birillik pandemiya dövründə ilk dəfədir, ölkə sərhədlərindən kənara səfər etmək şansı qazandım. Qardaş Türkiyə dövlətini - ikinci vətənimi, öz millətimi ziyarətə yollandım. Özü də bu ölkənin Mədəniyyət və Turizm Nazirliyinin dəvəti ilə. Türk Hava Yollarına məxsus təyyarə Avropanın ən böyük aeroportu olan İstanbul Hava Limanına enəndə saat 11:00 olardı. Hə, bu arada, hava limanını təriflməyə söz tapmaq mümkünsüzdür, o qədər böyük və möhtəşəmdir ki... Pandemiya vəziyyəti olsa da, limanın ərazisində sıralanmış saysız-hesabsız təyyarələr bu möhtəşəmliyi daha da qabardır. Fərqli xaqların nümayəndələri olan turistlərin iri çemodanları dartaraq apardıqları ucsuz-bucaqsız salonlarda, sözün əsl mənasında, qayda-qanun hökm sürür.***

Termal kameralar insanları izləyir, kimdə yüksək hərarət var, onu müəyyənləşdirir. Polis və digər məsul işçilər isə maskasız yolçuları müəyyənləşdirir, adamlar arasında məsafənin qorunmasını təmin edirlər. Bir sözlə, dünyanın harasından olursa-olsun, Türkiyəyə gələn turistlər üçün ilk qapı olan hava limanında Covid-19 təhlükəsindən qorunmaq üçün maksimum şərait yaradılıb.

Hava limanından şəhərə çıxışda bizi bələdçimiz olan Orçun bəy gözləyirdi - savadlı, dünyagörüşlü, insan kimi də mehriban, dürüst. Media qrupumuzdan hər birimizin çoxsaylı suallarını elə səbrlə cavablandırırdı ki... Beləliklə, bizi İstanbulda qonaqlayacaq beşulduzlu “Novotel”ə aparacaq avtobusa mindik.



Turistləri koronavirus təhlükəsindən qorumaq üçün həyata keçirdikləri üsullardan birini də avtobuslarda tətbiq edib Türkiyə hökuməti. Deməli, oturacaqlar qoşa olsa da, orada sadəcə bir turist otura bilir. Yəni iki nəfər yan-yana otura bilməz - məsafə qorunur. Hər bir sərnişin-turist üçün oturacağın üzərinə Covid-19 təhlükəsinə qarşı önləyici vasitələr - maska, tibbi spirt, antibakterial nəm solfetka, antibakterial maye sabun, antibakterial əl təmizləyici krem və quru, partlayan dərini nəmləndirən xüsusi kremdən ibarət paket qoyulur.

■ **Otelə yerləşəndən sonra ilk görüşümüzü elə buradaca, Türkiyə Turuzim Təşviqi və İnkişafı Agentliyinin meneceri Məhmət-han Kelkitlə keçirdik.** Türkiyədə turizmin müasir vəziyyəti və pandemiya şəraitində bu sahənin inkişafı məqsədilə icra olunan planlardan söz açan cənab Kelkit bildirdi ki, hazırda ölkəsində turizmi təşviq etmək üçün Güvənli Turizm Sertifikatlaşdırma Proqramı icra olunur. Məhz bu proqram əsasında tətilini Türkiyədə keçirən türk vətəndaşlarına və əcnəbi turistlərə nəqliyyatdan qonaqlamaya, otel işçilərindən yolçuların sağlıq durumunadək çox geniş sahədə bir sıra tədbirlər həyata keçirilir. Bu il yanvarın 1-dən etibarən də sayı 30 və daha çox olan qonaqlama təsisləri (otellər, qonaq evləri və digər bu məzmunlu yerlər - V.T.) məcburi, otaq sayı sayı 30-dan az olan təsislər isə könüllülük əsasında sertifikat almaq istəyən beynəlxalq akreditasiya qurumlarına müraciət edə biləcəklər.

### “Güvənli Turizm Sertifikatlaşdırma Proqramı”

**“Dünyadakı ilk nümunələrdən biri olan “Güvənli Turizm Sertifikatlaşdırma Proqramı”, Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı, Səhiyyə, Daxili İşlər və Xarici İşlər nazirliklərinin dəstəyi və bütün sektor ortaqlarının əməkdaşlığı ilə hazırlanıb.** Konaqlama, yemək-içmək təsisləri, tur və transfer vasitələri, konqres və sənət təsisləri, mexaniki xətlər və dəniz turizmini ayrı-ayrı meyarlar çərçivəsində, beynəlxalq standartlar əsasında yoxlayaraq, Güvənli Turizm Sertifikatlaşdırmasını verməyə səlahiyyətli olan akreditasiya firmaları, müraciət edən təsislərə mütəmadi olaraq yoxlama göndərib, tələblərə uyğun hidmət verilib-verilmədiyini araşdırmalıdır”, - deyən menecer əlavə etdi ki, ölkəyə gələn turistlərin tibbi və qonaqlama müstəvisində sığortalanması vacibdir. Ölkəyə gələn hansısa turist koronavirusa yaxalanarsa, əgər o, sığorta edilibsə, o zaman müalicəsi Türkiyədə aparılır və qonaqlama sığortası da olunubsa, onun əvvəl yerləşdiyi oteldə iki həftə qalmaq şansı olur. Yəni sığorta onun xərclərini ödəyir. Yox, əgər sığorta olunmayıbsa, o zaman təsadüfən xəstələndiyi halda öz hesaabına müalicə ediləcək və ya otelə əlavə haqq ödəyəcək.

M.Kelkit Türkiyədə pandemiya ilə mübarizə sahəsində tətbiq etdikləri maraqlı bir tərzdən də söz açdı. Dedi ki, Covid-19 xəstəliyinin qarşısını almaq, bunun üçün virusun yayılmasını önləmək məqsədilə Türkiyənin bütün ərazisində maraqlı bir üsuldan istifadə edilir. Məsələn, tutaq ki, Çengiz adlı şəxs Covid-19-a yaxalanıb. Ondan soruşulur ki, bu gün haralara gedib, kimlərlə görüşüb və sair. Əgər desə ki, məsələn, məhəllədə dükana gedib, filan-filan adamlarla təmasda olub, mütləq nümayəndələr həmin dükana gedəcək, dediyi adamları tapacaq və onlar hamılıqla karantin altına alınacaqlar. Bu da virisin gündəlik artımının qarşısını almaqda çox müsbət effekt verib.

### Hazırda Türkiyədə 165 min həkim var

**Təqdimatçımız dedi ki, hazırda Türkiyədə xəstəliyin öhdəsindən gəlmək üçün böyük potensial mövcuddur və hətta ölkəsi bu sahədə dünyanın əksər inkişaf etmiş dövlətlərindən daha üstün mövqeyə sahibdir.** “Hazırda Türkiyədə 165 min həkim var, eləcə də dünya standartlarına uyğun 1 524 xəstəxana fəaliyyət göstərir. Pandemiya üzrə ixisaslaşmış xəstəxanaların sayı isə 563-dür. O cümlədən, Türkiyənin 81 vilayətinin hər birində pandemiya üzrə ixtisaslaşmış xəstəxana mövcuddur. Bu da imkan verir ki, ölkənin ucqarlarında koronavirusa yoluxan vətəndaş yerindəcə müalicə olunsun”.

M.Keltiklə görüşdən sonra oteldəcə nahar edərək, bu gün olduğu kimi, həftə sonları insan səsinə qəribsəyən qədim və əzəmətli İstanbulu gəzmək üçün boş, amma füsunkar küçələrinə üz tutduq...

...Boş küçələri dolaşıb İstanbulun görən gözü olan tarixi Qalata bürcünə gəldim. Şəhərdə hökm sürən həftə sonu sükutundan bir az fərqli ab-hava vardı burda. Aylı-ulduzlu, al-qırmızı türk bayraqlarının bəzədiyi bu ərazidə xeyli sayda insan gözə çarpırdı. Kimlər şəkil çəkdirir, kimilər baş-başa verib söhbət edir, kimilər də acgöz baxışlarla ətrafı seyr edirdi. “Qonşudan geri qalma” deyib atalar, mən də həvəslənib bir iki pozada şəkil çəkdirib özümü verdim Qalata qülləsinə.

Məlumat üçün deyim ki, karantin yasağı olduğundan bura gələnlər əsasən əcnəbi turistlər idi, özü də saysız-hesabsız. Axı onlara karantin rejimində hərəkət sərbəstliyi müstəvisində istisna hüquq verib hökumət.

### İstanbulun fənəri

**Ara məsafəni gözləməklə sıraya düzülən turistlərin axarında qülləyə daxil oldum. Hər yerdə olduğu kimi, hərarətim ölçüldü, əllərimə antibakterial spirt vuruldu. Bundan sonra bələdçimiz Orçun Taranın müşayiəti ilə liftlə yuxarı qata qalxdım.**

Tam 15 əsrlik tarixi ilə qürurlanan, 67 metr hündürlüyündə, şəhərin məşhur tarixi-coğrafi bölgəsi olan Haliçin, eləcə də günümüzdə Topqapı sarayı, Süleymaniyyə, Ayasofya və sairin də yer aldığı Eminönü yarımadasının mənzərəsini seyr edən bu əzəmətli bürc 528-ci ildə Bizans imperatoru Anastasius tərəfindən gəmilər üçün mayak qülləsi olaraq tikilib. 1204-cü ildə IV Səlib yürüşü zamanı ağır zərbələr alan qüllə 1348-ci ildə Cenevizlilər tərəfindən “İsa qalası” adı ilə bərpa olunub. 1445-1446-cı illərdə burada hazırda gördüyümüz tikili inşa edilib. Həm də Konstantinopolun keşikçisi rolunu alan bu qüllədən şəhərin böyük bir hissəsini nəzarətdə saxlamaq mümkün olub. Əlbəttə, bugünkü İstanbul sələfi Konstantinopolla müqayisəedilməz dərəcədə genişdir, Qalatadan baxmaqla hər yeri açıq görmək olmur, amma buna baxmayaraq, günümüzdə də Qalata qülləsi İstanbulun böyük ərazisini seyr etmək üçün ən yaxşı məkan sayılır.

Bu yerdə qeyd edim ki, İstanbulun üzərində yerləşdiyi yeddi təpənin hamısını Qalata qülləsindən seyr etmək mümkündür. Məhz belə vacib geosiyasi mövqe tarixi dövrü ərzində Qalata bürcünün əhəmiyyətini müqayisəedilməz edib. Vaxtilə Bizans imperatoru Böyük Konstantin ölümündən sonra məhz burada dəfn edilməsini arzuladığı kimi, Osmanlı dönəmində də sözügedən yeddi təpənin hər birində bir məscid tikilib ki, Qalata qülləsindən baxanda hər yerdə İslam və Osmanlı görünsün.

Orçun bəy deyir ki, 1453-cü ildə Osmanlı Ordusu Konstantinopola daxil olandan sonra - may ayının 29-da Qalata qülləsinin açarı Cenevizlilər tərəfindən Fatih Sultan Məhmətə təqdim edilib. ”Qüllə 1509-cu ildə baş verən və osmanlılar tərəfindən “kiçik qiyamət” adlandırılan zəlzələ zamanı ciddi zərər görüb. Lakin o dövrün tanınmış memarlarından olan Heyrəddin tərəfindən yenidən qurulub. Osmanlı sultanı III Muradın hakimiyyəti vaxtlarından başlayaraq 1579-cu ilədək qüllə rəsədxana kimi fəaliyyət göstərib. XVI əsrdə isə İstanbulun Kasımpaşa limanında işləyən xristian müharibə əsirlərinin sığınacağı olub”, - deyən bələdçimiz əlavə etdi ki, XVII əsrin birinci yarısında dövrün elm adamlarından olan Əhmət Çələbi taxtadan düzəltdiyi qartal qanadları ilə Qalata qülləsindən İstanbulun Üsküdar istiqamətində uçub. Avropalılarda böyük maraq yaradan bu olayla bağlı dünyanın bir çox yerində hələ də yazılar və videogörüntülər saxlanılır. 1717-ci ildə İstanbulda baş verən yanğınlar səbəbindən Qalatadan yanğına nəzarət qülləsi olaraq istifadə edilib. Buna baxmayaraq, XVII əsrin ortalarında və 1831-ci ildə qüllədə baş verən iki yanğın nəticəsində tikili ciddi zərər görür. 1875-ci ildə İstanbulda baş vermiş güclü fırtına isə qüllənin üst hissəsini tamamilə dağıdır. 1965-1967-ci illərdə qüllənin dağılmış hissəsi bərpa edilir və Qalata qülləsi bugünkü görünüşünü alır. Burada restoran açılır və sair. Son olaraq ötən il Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təmir edilən Qalata qülləsi, bu gün olduğu kimi, sırf turizm məqsədli tarixi məkana çevrilib. İndi qüllənin ən yuxarı qatında şəhəri 360 dərəcə seyr etmək üçün salon və ətrafını haşiyələyən eyvan mövcuddur ki, günün istənilən saatında burada turist sıxlığı yaşanır. Alt qatlarda isə tarixi abidənin ofisi, muzey və təbii ki, tikilinin tarixini özündə əks etdirən suvenirlərin satıldığı salonlar yerləşir.

Tarixi dövrü ərzində qüllənin zirzəmisindən zindan kimi də istifadə olunub. Bunu son dövrlərdə orada aparılan qazıntılar zamanı tapılan insan sümükləri də sübut edir.

Qalata qülləsindən şəhərin dörd bir yanını seyr edib, çoxlu xatirə şəkli çəkdirib aşağı endim. Belə tarixi məkanlardan əliboş dönmək kimi adətim olmayıb heç vaxt. Ona görə də düz qüllənin ətəyindəki kiçik suvenir dükanına girib, Qalatanın mini-maketini aldım.

### Türk xalqının uğurları

**İçəridə məndən başqa alıcı qismində 6-7 turist də vardı. İkisi rusca danışırdı, digərləri deyəsən ingilis idi, çünki ingiliscə söhbət edirdilər. Gənc satıcı oğlan da mehribanlıqla alıcıların suallarını cavablandırmağa çalışırdı.** Bir maraqlı məqam da o oldu ki, rus turistlərindən biri satıcı oğlandan almaq istədiyi suvenirin qiymətini təmiz Azərbaycan dilində soruşdu. Fürsətdən istifadə edib onu söhbətə çəkdim.

***- Bağışlayın, Azərbaycandan gəlmisiniz?***

Özümü guya onların rus olduğunu bilmirəmmiş kimi göstərərək soruşdum.

- Xeyr, mən Rusiyadanam - Kurskdan.

***- Azərbaycanca danışdınız satıcı ilə, dilimizi necə öyrənmisiniz?***

- Biz Bakıda yaşamışıq, 16 yaşımadək Azərbaycanda olmuşam, 22 il əvvəl - 1998-ci ildə Rusiyaya köçmüşük. Bakıda dostlarımın hamısı azərbaycanlı olub, anam Azərbaycan dilini mükəmməl bilir, evimizdə bu dilə böyük maraq olub və indi də var. Yoxsa bu 22 ildə yadırğayardım

*Gülümsədi.*

Adının Vladimir olduğunu deyən 39 yaşlı həmsöhbətimdən pandemiyanın bu qızğın vaxtında, ən azından, Rusiyada vəziyyətin heç də yaxşı olmadığı bir zamanda Türkiyəyə necə gəldiyini, buradakı vəziyyəti necə dəyərləndirdiyini soruşdum. Vladimirin söylədiklərindən:

- Koronavirus Kurskda da var, amma o qədər də ağır deyil bizdə, vəziyyət - adi karantin məhdudiyyətləri olur. Dörd gündür İstanbuldayam, hələ iki gün də qalacağam. Həftəsonları bütün şəhər camaatının evlərinə qapadılması sadəcə pandemiya vəziyyətinin ağır olduğunu deyil, dolayısı ilə hökumətin öz vətəndaşlarını bu təhlükədən qorumaq üçün necə sərt tədbirlərə əl atığını göstərir. Alqışlayıram bu qaydanı tətbiq edənləri və türk xalqını. Bu gün şəhərin tamam insansız görünməsinin bir uğuru qaydaların pozulmasına imkan verməyən təhlükəsizlik qüvvələrinin üzərinə düşürsə, əsas uğur xalqın özünündür. Xalq virusa yoluxmaq təhlükəsindən xilas olmaq istəyir. Bizdə isə nə cərimələr, nə də başqa məhdudiyyətlər insanları buradakı kimi evlərə qapaya bilmir.

Mənimlə danışa-danışa aldığı suvenirin pulunu ödəyən Vladimirlə ayaqüstü söhbətimizi dükanın bayırında davam etdirdik.

- Bura gözəldir, - əli ilə Qalata qülləsini göstərdi, - çox möhtəşəmdir. Bizdə belə yerlər yoxdur, ona görə də tarixi abidələri görmək istəyənlər Türkiyəyə, İtaliyaya axışır. Üstəlik, bu ölkədə bir azdan isti dəniz, yumşaq qumluq və qızmar günəş mövsümü də başlayacaq. Bilirsiniz, Rusiyada kimdən soruşsanız ki, hansı ölkəyə getmək istəyirsən, hər üç adamdan ikisi mütləq Türkiyənin adını çəkəcək. Antalya, Kəmər, Bodrum və əlbəttə ki, İstanbulu görmək hər bir rusiyalının arzusudur.

***- Alış-veriş edəcəksiniz yəqin, amma bu gün hər yer bağlıdır, - dedim.***

*Gülümsədi.*

- Dedim axı, mən artıq dörd gündür buradayam, hər gün almaq istədyim nə oldusa, alıb otel otağıma daşımışam. Nəzərə alsaq ki, hələ üç gün də buradayam, deməli, alış-veriş problemim yoxdur.

***- Burada yoluxma risqi necədir, Rusiyadakından fərqli və ya oxşar nə görə bilmisiniz?***

- Oxşarlıq odur ki, burada da, Rusiyada da eyni virus yayılır və hökumətlər onun qarşısını almağa səy göstərir; insanlar ağız-burunlarını maska ilə bağlayaraq qorunurlar. Fərq isə ondadır ki, burada insanlar biz ruslarla müqayisədə qadağalara daha çox əməl edir, küçələrdə maska taxmayan adamların sayı bizdəki ilə müqayisədə daha azdır və sair. Hə, bir fərq də odur ki, Rusiya ilə müqayisədə Türkiyədə daha çox xarici turist görmək olur. Deməк ki, əcnəbilər burada virusa yoluxma təhlükəsi hiss etmirlər. Mən gələndə sığorta olunmuşam, əgər təsadüfən yoluxsam, Türkiyənin xəstəxanalarında müalicə olunacağam.

### Həftəsonu boşalan Taksim

**Doğrudan da hansısa əcnəbinin Türkiyə haqqında ürəkdolusu dediyi xoş söylər qeyri-iradi məni qürurlandırdı. Bu sözləri, sanki doğma Azərbaycanımız haqqında deyirdi, amma qardaşlığın sirri elə bundadır - Türkiyə axı mənim də vətənimdir...**

Vladimirlə sağollaşıb Azərbaycanda hər kəsin sadəcə “Taksim” dediyi İstiqlal küçəsi boyunca üzüyuxarı - Taksim meydanına səmt aldım.

İstanbula neçə dəfə gəlmişəm, heç vaxt İstiqlal küçəsini belə boş görməmişəm. Tək-tək adamlar gözə dəyirdi, onların da əksəriyyəti ya əcnəbilərdi, ya da ərzaq dükanlarının satıcıları. Nə günboyu davam edən izdiham görünürdü, nə də küçənin tən ortası ilə qoşa xətti xatırladan polad reyslər üzərində ara-sıra siqnallayaraq yol istəyən əski model tramvay. Gözəgörünməyən öldürücü virus tarixi İstiqlal küçəsinin gündəlik ənənələrini beləcə dəyişmişdi.

Sonuncu dəfə pandemiyadan öncə gəzmişdim İstiqlal küçəsini. Küçə boyunca divarların dibində özünə yer edib mahnı oxuyan, rəqs edən həvaskar əcnəbi musiqiçilərin - bunlar ərəblər, hindistanlılar, pakistanlılar, Afrikamənşəlilər idi - çıxışları izdihamın nəriltisi arasında qulağı oxşayırdı. Bir-birinin ardınca düzülən ən məşhur geyim firmalarının dükanları, restoranlar və digər alış-veriş mərkəzləri,



bir sıra dövlətlərin diplomatik iqamətgahları, kilsə və məscid binaları, müxtəlif dini-milli cəmiyyətlərin ofisləri də İstiqlal küçəsini rəngarəng edirdi. İndi isə virusa yoluxma təhlükəsi və ondan qaynaqlanan boşluqları, havanın kəskin soyuması bir az da sərtləşdirirdi. Əlbəttə, pandemiyanın yaratdığı qadağalara rəğmən, bayaq da qeyd etdiyim kimi, küçəni tək qoymayan kifayət sayda əcnəbi turist yaranan boşluğu qismən doldurmağa çalışırdı. “Su axan arxa yenə su gələr”, - deyib babalarımız. İnanaq ki, tezliklə koronavirus pandemiyası tarixə qovuşacaq, qarlı-boranlı qış günləri arxada qalacaq, qadağalardan səssizləşən küçə və meydanlar da yenidən dolub-daşacaq və Türkiyədə cəmiyyətin bütün sahələri kimi, turizm də əvvəlki gücünü artıqlaması ilə bərpa edəcək...

***✍ Vüsal Tağıbəyli***
***Bakı-İstanbul***

## GÜNÜN FOTOSU



“Gapi” ləqəbli buldok it Bankokda sevgililər gününü tək qeyd edir...

## Qələbə Prezident İlham Əliyevin siyasətinin zəfəridir

**İqor Korotçenko,**
rusiyalı hərbi ekspert

On min erməni fərarisi - ay yarım ərzində bu sayda fərari heç bir müharibədə görünməmişdi.

▸▸ Səh. 3

## STATİSTİKA




■ Nyu-Yorkda taksi fəaliyyəti ilə məşğul olan sürücülərin 90 faizi digər ölkələrdən gəlmədir.

■ ABŞ milli valyutası olan dolların 90 faizində narktotik maddə elementləri tapılır. Onların əksər hissəsinin narkotik maddə alverindəç istifad olunduğu bildirilir.

■ ABŞ əhalisinin 60 faizi İraqın, 90 faizi isə Əfqanıstanın xəritədə harada yerləşdiyindən xəbərsizdir.



▸▸ Səh. 7

## Qazi atanın şəhid övladı